# ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIQ




LAYİHƏ

İntiqam Əsgərov
Qılman Eyvazov

*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Çağırışaqədərki hazırlıq fənni üzrə dərsliyin*

# METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

# MÜNDƏRİCAT


Çağırışaqədərki hazırlıq fənninin məqsəd və vəzifələri . . . . . . . . . . . . . . . . . . . . . .

10-cu sinif Çağırışaqədərki hazırlıq fənni üzrə təlim nəticələri. . . . . . . . . . . . . . . . .

Məzmun xətləri üzrə əsas və alt standartlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Fəaliyyət xətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Təlimin təşkilinin forma və üsulları barədə tövsiyələr . . . . . . . . . . . . . . . . . . . . . .

Çağırışaqədərki hazırlıq fənnindən 10-cu siniflər üçün
perspektiv planlaşdırma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Fəndaxili və fənlərarası inteqrasiya cədvəli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Təlım strategıyaları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 1. Dövlət rəmzləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 2. Silahlı Qüvvələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 3. Başqa silahlı birləşmələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30

Mövzu 4. Hərbi atributlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33

Mövzu 5. Hərbi qanunvericilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39

Mövzu 6. İntizam Nizamnaməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45

Mövzu 7. Sıra Nizamnaməsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 8. Daxili Xidmət Nizamnaməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58

Mövzu 9. Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 10. Ümümqoşun döyüşü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 11. Əsgərin döyüşdə vəzifələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 12. Əsgərin döyüşdə hərəkətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 13. Döyüş təminatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69

Mövzu 14. Manqanın quruluşu və döyüş imkanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 73

Mövzu 15. Manqa hücumda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 16. Manqanın müdafiədə mövqeyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 17. Kalaşnikov avtomatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 18. Avtomatın natamam sökülməsi və yığılması. . . . . . . . . . . . . . . . . . . . .

Mövzu 19. Atışın əsasları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 89


LAYİHƏ

Mövzu 20. Pulemyotlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
Mövzu 21. Tank əleyhinə əl qumbaraatanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
Mövzu 22. Snayper tüfəngləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 23. Tapançalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 24. Əl qumbaraları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 25. Mühəndis maneələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 26. Zirehli texnikalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 27. Hərbi topoqrafiya. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 119
Mövzu 28. Xəritəsiz səmtlənmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 29. Azimutla hərəkət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 30. Fövqəladə hallar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 31. Təbii fəlakətlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 130
Mövzu 32. Kütləvi qırğın silahları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 135
Mövzu 33. Fərdi mühafizə vasitələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 143
Mövzu 34. Kollektiv mühafizə qurğuları . . . . . . . . . . . . . . . . . . . . . . .
Mövzu 35. Sağlam həyat tərzi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 152
Mövzu 36. Yaralılara ilk tibbi yardım . . . . . . . . . . . . . . . . . . . . . . . . . 154
Mövzu 37. Zədələnmədə ilk tibbi yardım . . . . . . . . . . . . . . . . . . . . . . 158
Mövzu 38. Bioloji vasitələrdən mühafizə . . . . . . . . . . . . . . . . . . . . . .

Kiçik summativ qiymətləndirmə-1 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kiçik summativ qiymətləndirmə-2 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kiçik summativ qiymətləndirmə-3 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kiçik summativ qiymətləndirmə-4 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kiçik summativ qiymətləndirmə-5 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kiçik summativ qiymətləndirmə-6 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Ədəbiyyat siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 183

LAYİHƏ

## ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIQ FƏNNİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Çağırışaqədərki hazırlıq fənninin tədrisi Azərbaycan xalqının və dövlətçiliyinin qorunması, onun ərazi bütövlüyünün təmin edilməsi üçün əsas qarant olan Silahlı Qüvvələrimizə sağlam, vətənpərvər ruhlu gənclər hazırlamaq zərurətindən irəli gəlir.

Xalqına, vətəninə, tarixinə və adət-ənənələrinə sonsuz məhəbbət bəsləmək, hər an vətənin müdafiəsinə qalxmağa hazır olmaq gənc nəslin yüksək mənəvi keyfiyyətləri hesab olunur. Çağırışaqədərki hazırlıq fənninin tədrisi bu keyfiyyətlərin formalaşması üçün geniş imkanlar yaradır.

Sülh dövründə hərbi xidmətin qüsursuz keçilməsini, müharibə zamanı isə döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edən bir sıra sosial və intellektual keyfiyyətlərin formalaşdırılması, ilk növbədə cəsurluq, düşmənlə mübarizədə dözümlülük, qələbə naminə iradə və təmkinlilik, mürəkkəb şəraitdə düzgün qərar qəbuletmə yüksək keyfiyyətlər hesab edilir. Bu keyfiyyətlərin yaranmasında Çağırışaqədərki hazırlıq fənninin rolu böyükdür.

Çağırışaqədərki hazırlıq fənni Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, "Təhsil haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına, Nazirlər Kabinetinin qərarlarına və digər normativ-hüquqi aktlara əsasən orta ümumtəhsil məktəblərinin tam orta təhsil səviyyəsində və digər təhsil müəssisələrinin buna bərabər mərhələlərində həyata keçirilir. Fənnin tədrisi məktəblərdə əyani tədris və texniki vasitələrlə təchiz edilmiş hərbi kabinetlərdə ixtisaslı hərbi rəhbərlər tərəfindən həyata keçirilir.

Çağırışaqədərki hazırlıq fənninin məqsədi yeniyetmələri Azərbaycan Respublikası Konstitusiyasının qanunları və hərbi xidmətə dair müddəalarla tanış etmək, onların hərbi və vətənpərvər ruhda tərbiyəsini təmin etmək, onlara atəş hazırlığı, mülki müdafiə və tibbi hazırlıq üzrə ilkin bilik, bacarıq və vərdişlərin verilməsini təmin etməkdən ibarətdir.

LAYİHƏ

Bu fənn tabeliyindən və mülkiyyətindən asılı olmayaraq ümumtəhsil məktəblərində, gimnaziyalarda, liseylərdə tam orta təhsil pilləsində, texniki peşə məktəblərində, peşə liseylərində və orta ixtisas məktəblərində ***dövlət əhəmiyyətli bir fənn*** kimi tədris edilir. Fənn üzrə tədris proqramı üç məzmun xəttini əhatə edir:

| | |
|---|---|
| Birinci məzmun xətti | Dövlət təhlükəsizliyinin tarixi və hüquqi əsasları |
| İkinci məzmun xətti | Həyat fəaliyyətinin təhlükəsizliyinin təminatı |
| Üçüncü məzmun xətti | Tibbi biliklər və ilk tibbi yardım qaydaları |

**Birinci məzmun xəttinin** tədrisi zamanı şagirdlər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tarixini öyrənməklə vətənpərvərlik ruhunda tərbiyə alır, onlarda vətənə və xalqa sədaqət, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmətin müqəddəs və şərəfli bir iş olmasına inamın, əqidəlilik, cəsurluq və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin formalaşmasına zəmin yaranır. Onlar Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunvericilik aktlarının ölkənin müdafiəsinə aid tələbləri ilə tanış olur, ölkənin müdafiəsinə dair vətəndaşlıq borcunu və məsuliyyətini başa düşür, habelə ordu həyatı ilə tanış olur, əsgərin vəzifə, hüquq və məsuliyyətini dərk edirlər.

Bu məzmun xətti üzrə əldə olunmuş bilik və bacarıqlar gənclərin əvvəlcədən ordu mühiti haqqında anlayışlarını artırır, şagirdlərin idraki fəallığının yüksəlməsini stimullaşdırır. Şagirdlər öz ölkəsinin həm dövlətçilik, həm də hərb tarixi haqqında məlumatlar əldə edirlər. Onların tədqiqat aparma, mühakimə yürütmə, qərar qəbuletmə bacarıqlarının formalaşmasına geniş şərait yaranır.

LAYİHƏ

**İkinci məzmun xəttində** şagirdlər Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulduğu, terror təhdidi və işğalla üz-üzə qaldığı bir dövrdə həyat fəaliyyətinin təhlükəsizliyinin təminatına dair zəruri biliklər alırlar. Onlar ümumqoşun döyüşünün əsasları, taktika və müasir silahlar haqqında biliklərə, topoqrafiya, mülki müdafiə üzrə bacarıqlara yiyələnirlər. Əldə olunan bilik və bacarıqlar, ilk növbədə, hərbi xidmətə gedəcək gənclərin çağırışaqədərki hazırlıq dövrü üçün böyük əhəmiyyət kəsb edir.

**Üçüncü məzmun xəttində** şagirdlərə həyat üçün ən vacib amil olan sağlam həyat tərzinin öyrədilməsi ilə yanaşı, istər müharibə, istərsə də sülh şəraitində baş verə biləcək fövqəladə hadisələr zamanı xəsarət alanlara və zərərçəkənlərə göstəriləcək ilk tibbi yardım haqqında ibtidai biliklər verilir. Şagirdlərin bu sahədə yiyələndikləri bilik və bacarıqlar onların inkişaf etməsinə geniş imkanlar yaradır, onlarda zərərçəkənlərə (yaralılara) humanist yanaşma, əsl insani keyfiyyətlər nümayiş etdirməklə təmənnasız tibbi yardım göstərmə xüsusiyyətlərini formalaşdırır.

Çağırışaqədərki hazırlıq fənni özünün fəndaxili və fənlərarası inteqrativliyi ilə başqa fənlərdən nəzərəçarpacaq dərəcədə fərqlənir. Fəndaxili inteqrativlik fənn üzrə mövzuların öyrənilməsində bütün təlim istiqamətlərinin bir-biri ilə sıx əlaqəli olduğunu göstərir.

Bu fənn Tarix, Coğrafiya, Fizika, Riyaziyyat, Biologiya, Həyat bilgisi, Azərbaycan dili, Fiziki tərbiyə fənləri ilə geniş inteqrativ imkanlara malikdir.

Tədris prosesində şagirdlərə kompleks şəkildə biliklər verilməsində, onların dünyagörüşünün artırılmasında, təfəkkürlərinin inkişafında, tədqiqatçılığa meyilliliyin yaradılmasında, qazanılan nəzəri biliklərin praktiki olaraq həyatda tətbiq edilməsində inteqrativ metodların istifadəsinin rolu böyükdür.

Yuxarıda göstərilənləri nəzərə alaraq müəllif Çağırışaqədərki hazırlıq dərsliyində fənnin əhəmiyyətini, məqsəd və vəzifələrini şagirdlərə anlatmaq üçün müxtəlif mövzulara toxunmuşdur.

LAYİHƏ

# SİNİF ÇAĞIRIŞAQƏDƏRKI HAZIRLIQ FƏNNİ ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

**10-cu sinfin sonunda şagird:**

- Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması, inkişafı, dövlət və hərbi atributları, Azərbaycan Silahlı Qüvvələri və başqa silahlı birləşmələr barədə bilikləri, Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarının hərbi xidmətə aid müddəalarını şərh edir;
- daxili xidmət, qarnizon və qarovul xidməti, sıra və intizam nizamnamələrinin ümumi müddəalarını şərh edir;
- müasir ümumqoşun döyüşü, döyüşün növləri, motoatıcı manqanın təşkili, döyüş imkanları, atıcı silahlar və əl qumbaralarının təyinatını, onların taktiki-texniki xassələrini, zirehli döyüş texnikaları haqqında bilikləri və onlardan istifadə qaydalarını şərh edir;
- ərazidə xəritəsiz səmtlənmə üsullarını və azimutlarla hərəkəti tətbiq edir;
- fövqəladə hadisələr zamanı mülki müdafiəyə dair biliklər nümayiş etdirir;
- sağlam həyat tərzinə, bütün növ fövqəladə hadisələr zamanı ilk tibbi yardım göstərməyə dair bilik və bacarıqlar nümayiş etdirir.

LAYİHƏ

## MƏZMUN XƏTLƏRİ ÜZRƏ ƏSAS VƏ ALT STANDARTLAR

**1. Dövlət təhlükəsizliyinin tarixi və hüquqi əsasları**

*Şagird:*

1.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması və inkişafı barədə bilik və bacarıqlar nümayiş etdirir.

1.1.1. Dövlət və hərbi atributları tanıyır, onları şərh edir.

1.1.2. Azərbaycan Respublikasının Silahlı Qüvvələri və başqa silahlı birləşmələr barədə təqdimat edir.

*Şagird:*

1.2. Vətənin müdafiəsində vətəndaşın vəzifələri barədə biliklər nümayiş etdirir.

1.2.1. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarının hərbi xidmətə aid müddəalarını şərh edir.

1.3. Silahlı Qüvvələrin Ümumqoşun nizamnamələri tələblərinin tətbiqi və icrası üzrə bilik və bacarıqlar nümayiş etdirir.

1.3.1. Sıra və intizam nizamnamələrinin ümumi müddəalarını şərh edir.

1.3.2. Daxili Xidmət, Qarnizon və Qarovul Xidmətləri nizamnamələrinin ümumi müddəalarını şərh edir.

**2. Həyat fəaliyyətinin təhlükəsizliyinin təminatı**

*Şagird:*

2.1. Müasir ümumqoşun döyüşü üzrə bilik və bacarıqlar nümayiş etdirir.

2.1.1. Müasir ümumqoşun döyüş və döyüş təminatı növlərini izah edir.

2.1.2. Motoatıcı manqanın təşkili və döyüş imkanları haqqında biliyini şərh edir.

*Şagird:*

2.2. Müasir döyüş vasitələri üzrə biliklərini nümayiş etdirir.

2.2.1. Atıcı silahların və əl qumbaralarının taktiki-texniki xassələri barədə təqdimat edir.

2.2.2. Manqanın mövqeyinin mühəndis təminatı üzrə biliklər nümayiş etdirir.

2.2.3. Zirehli döyüş texnikaları haqqında biliklərini şərh edir.

*Şagird:*

LAYİHƏ

2.3. Topoqrafiya üzrə bacarıqlar nümayiş etdirir.
2.3.1. Ərazidə xəritəsiz səmtlənmə üsullarını və azimutla hərəkəti tətbiq edir.

*Şagird:*

2.4. Fövqəladə hadisələr zamanı mülki müdafiəyə dair biliklər nümayiş etdirir.
2.4.1. Fövqəladə hadisələri təsnif edir.
2.4.2. Təbii fəlakətlər haqqında biliklərini şərh edir.
2.4.3. Kütləvi qırğın silahları və onların dağıdıcı vasitələri haqqında biliklərini şərh edir.

*Şagird:*

2.5. Mühafizə vasitələrindən istifadə edir.
2.5.1. Fərdi mühafizə vasitələri haqqında biliklərini şərh edir.
2.5.2. Kollektiv mühafizə vasitələri haqqında biliklərini nümayiş etdirir.

**3. Tibbi biliklər və ilk tibbi yardım qaydaları**

*Şagird:*

3.1. Sağlam həyat tərzi üzrə biliklər nümayiş etdirir.
3.1.1. Sağlam həyat tərzini təşkil edən amillər haqqında biliklərini nümayiş etdirir.

*Şagird:*

3.2. İlk tibbi yardımın göstərilməsinə dair bilik və bacarıqlar nümayiş etdirir.
3.2.1. Yaralanma və bədbəxt hadisə zamanı zərərçəkənlərə ilk tibbi yardım göstərir.
3.2.2. Radioaktiv və kimyəvi maddələrdən zədələnmələr zamanı ilk tibbi yardım göstərir.
3.2.3. Bioloji vasitələrdən, yoluxucu xəstəliklərdən mühafizə qaydalarına əməl edir.

LAYİHƏ

## FƏALİYYƏT XƏTLƏRİ

Çağırışaqədərki hazırlıq fənni üzrə aşağıdakı fəaliyyət xətləri müəyyənləşdirilir:

problemin müəyyənləşdirilməsi və həlli;

ünsiyyətqurma;

əlaqələndirmə;

mühakiməyürütmə və əsaslandırma;

təqdimetmə.

Fəaliyyət xətləri məzmun xətlərinin hər biri ilə əlaqəlidir.

Bu xətlər məzmun üzrə biliklərin əldə edilməsi və istifadəsi yollarını müəyyənləşdirmək, onları realizə etmək məqsədi daşıyır və şagirdlərə istiqamətləndirilir. Şagird Çağırışaqədərki hazırlıq fənnindən yiyələnəcəyi məzmuna müxtəlif fəaliyyətlər vasitəsilə nail ola bilər. O, fəaliyyət zamanı problemləri həll etmək üçün çağırışaqədərki hazırlıq məsələlərinin müzakirəsində iştirak edir, əldə etdiyi məlumatları əlaqələndirir, mühakimə yürüdür, fikirlərini əsaslandırır, biliklərini müxtəlif yollarla təqdim edir.

**Problemin müəyyənləşdirilməsi və həlli**

*Şagird:*

- çağırışaqədərki hazırlıqda problemləri görür və yeni biliklər əldə edir;
- problemlərin həlli üçün müvafiq yanaşmalardan və strategiyalardan istifadə edir;
- problemlərin həlli prosesinə nəzarət edir və bu barədə mülahizə yürüdür.

**Ünsiyyətqurma**

*Şagird:*

- ünsiyyət vasitəsilə mülahizələrini bölüşür və ümumiləşdirir;
- mülahizələri barədə yoldaşlarına, müəllimə və başqalarına məlumat verir;
- başqalarının mülahizələrini və strategiyalarını təhlil edir və dəyərləndirir;
- hərbiyə aid məsələləri dəqiq ifadə etmək üçün hərbi terminlərdən istifadə edir.

LAYİHƏ

**Əlaqələndirmə**

*Şagird:*

- hərbi biliklər, hadisələr arasındakı əlaqələri görür və onlardan istifadə edir;
- hərbi sahədə bilikləri və təklifləri bir-biri ilə ardıcıl əlaqələndirir və onları əsaslandırır;
- hərbi bilikləri digər sahələrdə tətbiq edir.

**Mühakiməyürütmə və əsaslandırma**

*Şagird:*

- mühakiməyürütmə və əsaslandırmanı əsas üsul kimi qəbul edir;
- fərziyyələr irəli sürür;
- müxtəlif tip mühakimə və əsaslandırma üsullarını seçir, onlardan istifadə edir.

**Təqdimetmə**

*Şagird:*

- təklifləri formalaşdırmaq, yazmaq və əlaqələndirmək üçün təqdimatlardan istifadə edir;
- problemlərin həlli üçün hərbi təqdimat formaları seçir və tətbiq edir;
- hərbi və həyati məsələləri modelləşdirmək və təsir etmək üçün təqdimatlardan istifadə edir.

LAYİHƏ

# TƏLİMİN TƏŞKİLİNİN FORMA VƏ ÜSULLARI BARƏDƏ TÖVSİYƏLƏR

Şagirdin öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır:

düşünməyə yönəltmə mərhələsi;

dərketmə mərhələsi;

düşünmə mərhələsi.

Düşünməyə yönəltmə mərhələsində şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird ilk olaraq mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir. Dərketmə mərhələsində şagirdlər yeni informasiya və ideyalarla təmasda olurlar. Əsas məsələ ondan ibarətdir ki, əvvəlki mərhələdə yaranmış fəallıq və maraq inkişaf etdirilir, şagirdlər yeni anlayışları müəyyən edib mənimsəmək üçün keçmiş və yeni biliklər arasında əlaqə yaradırlar.

Düşünmə mərhələsində şagirdlər yeni qazandıqları bilikləri möhkəmləndirməklə yanaşı, bir neçə mühüm məqsədə nail olmaq istiqamətində də fəaliyyət göstərirlər. Birincisi, şagirdlər yeni ideya və informasiyaları öz sözləri ilə ifadə etməyə çalışırlar. İkincisi, şagirdlər arasında canlı fikir mübadiləsi yaranır, onlar öz ekspressiv (təsirli) söz ehtiyatını genişləndirməyə, həmçinin digər şagirdlərin təsəvvürləri ilə tanış olmağa imkan tapırlar.

Çağırışaqədərki hazırlıq fənninin təlimində şagirdlərin fəallığını, dərslərin maraqlı və məzmunlu olmasını qeyri-standart dərs formalarından (dərs-müzakirə, dərs-ekskursiya, dərs-oyun, dərs-seminar, dərs-səyahət, dərs-iclas və s.) istifadə yolu ilə də təmin etmək mümkün olur. Bu dərslərdə müəllim və şagirdlərin fəaliyyəti qoyulmuş problemlərin həllinə yönəlir, sinifdə canlı və münbit təlim şəraiti yaranır. Belə dərslər, əsasən, motivasiya, problemin həlli, təqdimetmə, qiymətləndirmə mərhələlərindən ibarət olur.

Çağırışaqədərki hazırlıq dərsləri bütün təlim formalarında keçilə bilər. Dərslikdə kollektiv, qrup, cütlərlə, fərdi iş formalarından geniş istifadə olunmuşdur.

Yəqin, məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, özü düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərirlər. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs yeniyetmə şagirdlər üçün maraq doğurmur. Bu cür dərslərdə onlar müəllimi

LAYİHƏ

dinləməkdənsə, özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müəyyən strategiya müəyyənləşdirir, şagirdləri üçün elə bir mühit yaratmağa çalışırlar ki, onlar axtarış apararaq öyrənsinlər.

Bu axtarışı onlar kollektiv, qruplarla, cütlərlə və fərdi qaydada apara bilərlər. Bu təlim formaları müəllim tərəfindən dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

Kollektivlə iş zamanı kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur.

Qruplarla iş müəyyən problemi həll etmək üçün daha əlverişlidir. Bu zaman şagirdlərdə müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq etmək bacarıqları inkişaf etdirilir.

Cütlərlə iş – bu təlim forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır. Bu formadan istifadə etmək daha çox Venn diaqramı üzrə müqayisə apararkən məqsədəuyğundur.

Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Nəzərə almaq lazımdır ki, təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır.

Müəllim uyğun bildiyi və burada öz əksini tapmayan, eləcə də şəxsi təcrübə və peşəkarlığından irəli gələn üsul və metodlardan istifadə edə bilər. Yeri gəlmişkən, metod və üsullar seçilərkən müəllim sinfin, şagirdin yaş, bilik və bacarıq səviyyəsini nəzərə almalıdır. Eyni zamanda diqqət yetirilməlidir ki, seçilən metod və üsullar standartın reallaşmasına tam xidmət etsin. Bunun üçün də müəllim dərsini düzgün planlaşdırmağı bacarmalıdır.

Təlim formaları seçilərkən üsullarla vəhdət təşkil etməsi gözlənilmiş, uzlaşmaya diqqət yetirilmişdir. Seçilmiş təlim formalarının istifadəsi zamanı aşağıdakı bacarıqların formalaşması nəzərdə tutulmuşdur:

şagirdlərin vəzifələrini düzgün müəyyənləşdirməsini təmin etmək;

birgə fəaliyyəti təmin etmək;

bir-birinin fikrinə hörmətlə yanaşılmasına nail olmaq;

müstəqil fikirlər söylənməsi üçün imkan yaratmaq;

mübahisəyə yol vermədən sağlam rəqabət aparmaq;

problemin həllində kompromis yollar axtarmaq.

Çağırışaqədərki hazırlıq fənninin təlimi prosesində müxtəlif üsullardan istifadə etmək mümkündür. Dərslikdə aşağıdakı interaktiv üsulların istifadə olunması faydalı bilinib:

LAYİHƏ

Klaster

Venn diaqramı

İnsert

Rollu oyunlar

Müzakirə

BİBÖ

Beyin həmləsi

Söz assosiasiyası

Sorğu

Layihə

İnteraktiv mühazirə

Auksion

Təqdimat

**Klaster** (şaxələnmə) şagirdləri mövzu ilə bağlı sərbəst düşünməyə, axtarış aparmağa sövq edir. Onların idraki fəallığına imkan yaradır. Şaxələnmə üsulundan istifadə ilə dərslikdə nəticəçıxarma mərhələləri yekunlaşdırılıb. Məsələn, “Döyüş təminatı dedikdə nə başa düşürsünüz?” sualı ilə klaster üsulunu tətbiq etmək olar.

**Venn diaqramı.** Venn diaqramı nisbətən kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Çevrələrin üst-üstə düşdüyü hissədə nə isə yazmaq üçün kifayət qədər yer olur. Həmin yerdə fərqli, yaxud ümumi cəhətlər qeyd edilir. Məsələn, şagirdlər “ПК, ПКМ və ПКТ pulemyotları” mövzusunu müqayisəli şəkildə yekunlaşdıra bilərlər.

**İNSERT** üsulundan dərsin dərketmə mərhələsində istifadə olunur. Oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsuldan istifadə iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn,

✓ Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (v) qoyun.

– Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi (–) işarəsi qoyun.

\+ Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün təzə olsun.

LAYİHƏ

**Müzakirə.** Təlim diskussiyası konkret problem üzrə fikirləri mübadilə etmək dir. Bu metodun köməyi ilə şagirdlər Çağırışaqədərki hazırlıq üzrə yeni biliklərə yiyələnir, öz mövqelərini müdafiə edirlər. Təlim diskussiyasının başlıca funksiyası şagirdlərin idraki marağını stimullaşdırmaqdır. O həm də təhsilverici, inkişafetdiri ci, tərbiyəedici və nəzarətedici-təshihedici kimi köməkçi funksiyaları da yerinə yetirir.

**BİBÖ** üsulunda müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: Bilirəm/İstəyirəm bilim/Öyrəndim. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

**Beyin həmləsi** üsulu "əqli hücum" da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya zəif) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

**Söz assosiasiyasından** istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin sözlə bağlı ilk xatırladıqları fikirləri söyləyirlər və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Sorğu** üsulu araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

**Layihələrin** hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə

LAYİHƏ

şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

**İnteraktiv mühazirə** məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır. Mühazirənin məqsəd və vəzifələri dəqiq olmalı, əyani və texniki vasitələrdən istifadə olunmalı, mühazirə prosesi verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

**Auksionda** öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır. “Bir, iki”. Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

**Təqdimat** şagird fəaliyyətinin mühüm mərhələsidir. Nəzəri və təcrübi biliklərin vəhdətini əhatə edir. Vəsaitdə müxtəlif mövzuları əhatə edən təqdimat tapşırıqlarından istifadə olunmuşdur.**Beyin həmləsi** üsulu “əqli hücum” da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya zəif) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

**Söz assosiasiyasından** istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin sözlə bağlı ilk xatırladıqları fikirləri söyləyirlər və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Sorğu** üsulu araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

**Layihələrin** hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində

LAYİHƏ

işləyirlər. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

**İnteraktiv mühazirə** məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır. Mühazirənin məqsəd və vəzifələri dəqiq olmalı, əyani və texniki vasitələrdən istifadə olunmalı, mühazirə prosesi verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

**Auksionda** öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır. “Bir, iki”. Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

**Təqdimat** şagird fəaliyyətinin mühüm mərhələsidir. Nəzəri və təcrübi biliklərin vəhdətini əhatə edir. Vəsaitdə müxtəlif mövzuları əhatə edən təqdimat tapşırıqlarından istifadə olunmuşdur.

LAYİHƏ

## ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIQ FƏNNİNDƏN
## 10-cu SİNİFLƏR ÜÇÜN PERSPEKTİV PLANLAŞDIRMA

Həftədə 2 saat, cəmi 68 saat

**I yarımil**

| Tədris vahidi | Mövzu | Standart | Saat |
|---|---|---|---|
| **Giriş**<br>Çağırışaqədərki hazırlıq fənninin məqsəd və vəzifələri<br>**(Diaqnostik qiymətləndirmə)**<br>1.1, 1.2, 1.3, 2.1, 2.2, 2.3, 2.4, 2.5, 3.1, 3.2 | | | |
| **Hərbi xidmətin əsasları** (11 saat) | 1. Dövlət rəmzləri | 1.1.1 | |
| | 2. Silahlı Qüvvələr | 1.1.2 | |
| | 3. Başqa silahlı birləşmələr | 1.1.2 | |
| | 4. Hərbi atributlar | 1.1.2 | |
| | 5. Hərbi qanunvericilik | 1.2.1 | |
| | 6. İntizam Nizamnaməsi | 1.3.1 | |
| | 7. Sıra Nizamnaməsi | 1.3.1 | |
| | 8. Daxili Xidmət Nizamnaməsi | 1.3.2 | |
| | 9. Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi | 1.3.2 | |
| **Kiçik summativ qiymətləndirmə – 1** | | 1.1, 1.2, 1.3 | |

LAYİHƏ

| Tədris vahidi | Mövzu | Standart | Saat |
|---|---|---|---|
| Taktiki hazırlıq | 10. Ümümqoşun döyüşü | 2.1.1 | |
| | 11. Əsgərin döyüşdə vəzifələri | 2.1.1 | |
| | 12. Əsgərin döyüşdə hərəkətləri | 2.1.1 | |
| | 13. Döyüş təminatı | 2.1.1 | |
| | 14. Manqanın quruluşu və döyüş imkanı | 2.1.2 | |
| | 15. Manqa hücumda | 2.1.2 | |
| | 16. Manqanın mövqeyi | 2.1.2 | |
| **Kiçik summativ qiymətləndirmə – 2** | | 2.1 | |
| Döyüş vasitələri | 17. Kalaşnikov avtomatı | 2.2.1 | |
| | 18. Avtomatın natamam sökülməsi və yığılması | 2.2.1 | |
| | 19. Atışın əsasları | 2.2.1 | |
| | 20. Pulemyotlar | 2.2.1 | |
| | 21.Tank əleyhinə əl qumbaraatanı | 2.2.1 | |
| | 22. Snayper tüfəngləri | 2.2.1 | |
| | 23. Tapançalar | 2.2.1 | |
| | 24. Əl qumbaraları | 2.2.1 | |
| | 25. Mühəndis maneələri | 2.2.2 | |
| | 26. Zirehli texnikalar | 2.2.3 | |
| **Kiçik summativ qiymətləndirmə – 3** | | 2.2 | |

LAYİHƏ

**II yarımil**

| Tədris vahidi | Mövzu | Standart | Saat |
|---|---|---|---|
| **Hərbi topoqrafiya** | 27. Hərbi topoqrafiya | 2.3.1 | |
| | 28. Xəritəsiz səmtlənmə | 2.3.1 | 3 |
| | 29. Azimutla hərəkət | 2.3.1 | |
| **Kiçik summativ qiymətləndirmə – 4** | | 2.3 | |
| **Mülki müdafiə** | 30. Fövqəladə hallar | 2.4.1 | |
| | 31. Təbii fəlakətlər | 2.4.2 | |
| | 32. Kütləvi qırğın silahları | 2.4.3 | |
| | 33. Fərdi mühafizə vasitələri | 2.5.1 | |
| | 34. Kollektiv mühafizə qurğuları | 2.5.2 | |
| **Kiçik summativ qiymətləndirmə – 5** | | 2.4, 2.5 | |
| **Hərbi tibbi hazırlıq** | 35. Sağlam həyat tərzi | 3.1.1 | |
| | 36. Yaralılara ilk tibbi yardım | 3.2.1 | 3 |
| | 37. Zədələnmədə ilk tibbi yardım | 3.2.2 | 3 |
| | 38. Bioloji vasitələrdən mühafizə | 3.2.3 | |
| **Kiçik summativ qiymətləndirmə – 6** | | 3.1, 3.2 | |
| **Ümumiləşdirici dərs** | | | |

LAYİHƏ

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| ÇQH | Az. d. | Az. t. | H.b. | F. | İnf. | C. | B. | F.t. |
|---|---|---|---|---|---|---|---|---|
| 1.1.1. | 1.2.1. | 2.1.1., 1.2.1. | 2.3.1. | | | | | |
| 1.1.2. | 1.2.2., 1.2.4. | | | | | | | |
| 1.2.1. | 1.2.3. | 1.1.1., 1.2.1. | | | | | | |
| 1.3.1. | 1.2.4. | 1.2.1., 1.2.2. | 2.4.1. | | | | | |
| 1.3.2. | 3.1.1. | 1.2.2., 4.1.2. | 2.4.2. | | | | | |
| 2.1.1. | 1.2.2., 1.2.4., 2.2.2. | 1.2.1. | | | 3.3.1., 3.3.2. | 1.3.2. | 4.1.2. | |
| 2.1.2. | 1.2.2., 1.2.4. | | 2.2.2. | 2.2.2. | | | | |
| 2.2.1. | 1.2.2., 1.2.4. | | | | | | | |
| 2.2.2. | | | | | | | | |
| 2.2.3. | 1.2.4. | | | | | | | |
| 2.3.1. | | | | | | 1.3.1., 1.3.2. | | |
| 2.4.1. | 1.2.4. | | 4.3.1. | | | 2.1.1. | 3.2.1. | |
| 2.4.2. | 1.2.4. | | 4.3.1. | | | | | |
| 2.4.3. | 1.2.4. | | | | | | 3.2.1. | |
| 2.5.1. | | | 1.1.1., 1.1.2. | 1.1.1., 1.1.2. | | | 3.2.1. | 1.1.3. |
| 2.5.2. | | | 3.1.1., 3.1.2. | 3.1.1., 3.1.2. | 3.3.2. | | 3.2.1. | 1.2.3. |
| 3.1.1. | | | | | 3.3.1. | | 3.2.2. | |
| 3.2.1. | 1.2.4. | | | | | | 3.2.1. | |
| 3.2.2. | | | | | | | 3.2.1. | |
| 3.2.3. | | | | | | | | 1.2.3. |

LAYİHƏ

Çağırışaqədərki hazırlıq fənninin təliminin təşkilinə verilən tələblər.

Müasir dövrdə təlim daha çox fəal xarakter daşıması ilə izah olunur. Orada şagirdlərin marağına səbəb olmaqla onu təmin etmək, idraki fəaliyyətin inkişafını stimullaşdırmaq vacib hesab edilir.

Fəal təlimi, ilk növbədə, demokratik təhsil mühitinin yaradılmasını şərtləndirir. Demokratik təhsil mühiti, öz növbəsində, müəllim və şagirdin yaradıcı fəaliyyətinə imkan yaradır.

Demokratik mühit müəllim və şagirdlər qarşısında eyni tələblər qoyur. Onlar aşağıdakılardan ibarətdir:

| Müəllim | Şagirdlər |
|---|---|
| • Fikirlərini şifahi, yazılı ifadə etmək, diskussiya aparmaq, öz rəyini müda fiə etmək;<br>• Nəzərdə tutduğu ideya, təklif və yenili yi həyata keçirmək, onların şagirdlərin əqli, psixoloji durumuna müsbət təsirini əsaslandırmaq;<br>• Hər hansı qərarın qəbul edilməsində məktəb rəhbərliyindən kömək gözləmək;<br>• Digər fənn müəllimlərinin fəaliyyətinə hörmətlə yanaşmaq. | • Fikirlərini şifahi, yazılı ifadə etmək, diskussiya aparmaq, öz rəyini müdafiə etmək;<br>• Nəzərdə tutulduğu ideya, təklif və ye niliyi həyata keçirmək, onların şagird lərin əqli, psixoloji durumuna müsbət təsirini əsaslandırmaq;<br>• Hər hansı qərarın qəbul edilməsində məktəb rəhbərliyindən kömək gözləmək;<br>• Digər fənn müəllimlərinin fəaliyyətinə hörmətlə yanaşmaq. |

**Fəal təlimin prinsipləri**

Çağırışaqədərki hazırlıq fənni üzrə təlim aşağıdakı xüsusiyyətləri ilə fərqlənir:

Çağırışaqədərki hazırlıq fənni:

*a) şagirdyönümlüdür* – belə ki, əqli qabiliyyətindən asılı olaraq şagirdin imkanları nəzərə alınır, dərs şagirdlərin maraq və tələbatlarına uyğunlaşdırılır, dərsdə şagirdi həvəsləndirən ştrixlər maraqlı hərbi məlumatlarla əsaslandırılır.

*b) tədqiqatyönümlüdür* – şagirdlər özlərinə lazım olan məlumatları müxtəlif mənbələrdən, sxem, diaqram, cədvəl və xəritələrdən əldə edir, onları ümumiləşdirir, müqayisə edir, eləcə də yaşadığı mühitə dair məlumatları əlavə edir;

*c) inkişafyönümlüdür* – təlim şagirdin özünün müstəqil olaraq məlumat əldə etməsinə, onları ümumiləşdirməsinə, alınan materialı sərbəst şəkildə təqdim edə bilməsinə əsaslanır;

LAYİHƏ

*d) proqnozyönümlüdür* – təlim şagirdlərin dərsin məzmununa dair əldə etdiyi məlumatlar əsasında gələcək üçün fəaliyyət proqramı verə bilməsinə, müharibələr, ölkənin müdafiəsi, hərbi məlumatlar əsasında torpaqların azad edilməsi haqqında proqnozlar vermək baxımından bacarıqların formalaşmasına yönəlmişdir;

*e) çeviklik (cəldlik)* – şagird əldə etdiyi hərbi bilikləri daha tez tətbiq etmək, (məsələn, xəritə üzərində torpaqların azad edilməsi haqqında obyektlərin yerini göstərmək və yaşadığı yerlə müqayisə etmək), şərti işarələrə əsasən kartoqrafik təsvirlər üzərində marşrut seçmək qabiliyyətinə yiyələnir;

*"müəllim-şagird", "şagird-şagird" münasibətinin qurulması* – şagirdlər dərsin məzmununu zənginləşdirmək üçün "komanda" vermək, müşahidəçi (komandir kimi) olaraq hazırlığı yoxlamaq, sıra monitorinqi (baxışı) keçirmək bacarıqlarını (vərdişlərini) inkişaf etdirirlər.

**Diaqnostik qiymətləndirmə**

Sinif: _____ tarix ____________

Soyadı və adı_______________________________________

| S/s | Suallar | Cavab | Nəticə |
|---|---|---|---|
| | Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı na dair fikirlərin? | | |
| | Vətənin müdafiəsində vətəndaşın hansı vəzifələri var? | | |
| 3 | Silahlı Qüvvələrin ümumqoşun nizamnamələrinin tələbləri dedikdə sizdə hansı təsəvvür yaranır? | | |
| | Müasir ümumqoşun döyüşü necə təşkil olunur və aparılır? | | |
| 5 | Müasir döyüş vasitələrindən hansıların adını eşitmişsən və ya ətraflı öyrənmək istəyərdin? | | |
| | Topoqrafiya üzrə hansı bacarıqlar nümayiş etdirə bilərsən? | | |
| | Fövqəladə hadisələr və mülki müdafiə anlayışı barədə fikirlərin? | | |
| | Mühafizə vasitələri nədir və necə istifadə edilir? | | |
| 9 | Sağlam həyat tərzini necə təsəvvür edirsən? | | |
| | Hansı ilk tibbi yardım göstərə bilərsən və ya bilmək istəyərdin? | | |

LAYİHƏ

MÖVZU: 1

# DÖVLƏT RƏMZLƏRİ

**Standart:**

1.1.1. Dövlət rəmzlərini və hərbi atributları tanıyır, onları şərh edir.

**Dərsin məqsədi:**

– Azərbaycan Respublikasının dövlət rəmzləri olan bayraq, gerb və himnimizin rəmzi mənalarını şərh etmək.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv* |
| **İş üsulu:** | *Beyin həmləsi, şərh, sual-cavab* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

**Motivasiya (3 dəqiqə):**

Şəkil barədə fikirləri dinləyirəm. Şəkildəki təsvirlər arasındakı əlaqə hədəf gö türülür.



**Tədqiqat sualı:**

Azərbaycan Respublikasının dövlət rəmzlərində təsvirlər nəyi bildirir?

LAYİHƏ

**Tədqiqatın aparılması (15 dəqiqə):**

1. Dövlət bayrağımızın hazırlanması və istifadə tarixi?
2. Dövlət bayrağımızın təsvirlərinin rəmzi mənaları?
3. Dövlət bayrağımızın ölçüləri və asılma qaydaları?
4. Dövlət Gerbinin hazırlanması və istifadə tarixi?
5. Dövlət Gerbinin təsvirlərinin rəmzi mənaları?
6. Dövlət Gerbinin istifadə qaydaları?
7. Dövlət Himninin hazırlanması və istifadə tarixi?
8. Dövlət Himninin məzmunu?
9. Dövlət Himninin istifadə qaydaları?

**Məlumat mübadiləsi və müzakirəsi (15 dəqiqə):**

Sualların cavabları dinlənilir. Maraq doğuran suallar müzakirə olunur.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması (2 dəqiqə):**

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Bu mərhələdə məqsəd şagirdlərdə vətənpərvərlik əhvali-ruhiyyəsini yüksəltmək, Dövlət rəmzlərimiz barədə məlumatları aşılamaq və qürur hissini artırmaqdır.

**Yaradıcı tətbiqetmə (5 dəqiqə):**

Dövlət bayrağının şaquli vəziyyətdə sinif otağının divarına bərkidilməsi həyata keçirilir.

**Ev tapşırığı:**

Azərbaycan Respublikasının Dövlət Himnini iş dəftərinizə yazın.

**Qiymətləndirmə (2 dəqiqə):**

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

**Qiymətləndirmə:**

| I | II | III | IV |
|---|---|---|---|
| Dövlət rəmzlərini çətinliklə şərh edir | Dövlət rəmzlərini qismən şərh edir | Dövlət rəmzlərini şərh edir | Dövlət rəmzlərini nümunələr göstərməklə şərh edir |

LAYİHƏ

# MÖVZU: 2
# SİLAHLI QÜVVƏLƏR

**Standart:**

1.1.2. Azərbaycan Silahlı Qüvvələri və başqa silahlı birləşmələr barədə təqdimat edir.

**Dərsin məqsədi:**

– Silahlı Qüvvələrin (Azərbaycan Ordusunun) tərkibi və əsas vəzifələri barədə təqdimat edir.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv və kiçik qruplarla iş* |
| **İş üsulu:** | *Beyin həmləsi, təqdimat, Venn diaqramı* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma

**Motivasiya (3 dəqiqə):**

Beyin həmləsindən istifadə edilərək fotoşəkil barədə fikir və mülahizələr dinlənilir.




LAYİHƏ

### Tədqiqat sualı:

Silahlı qüvvələrin qoşun növlərini təyinatına görə necə təsnif edərsiniz?

### Tədqiqatın aparılması (7 dəqiqə):

**Tapşırıq:**

**I qrup:** Xüsusi Təyinatlı Qüvvələrin tərkibi və əsas vəzifələri barədə təqdimat edin.

**II qrup:** Quru Qoşunlarının tərkibi və əsas vəzifələri barədə təqdimat edin.

**III qrup:** Hava Hücumundan Müdafiə Qoşunlarının tərkibi və əsas vəzifələri barədə təqdimat edin.

**IV qrup:** Hərbi Hava Qüvvələrinin tərkibi və əsas vəzifələri barədə təqdimat edin.

**V qrup:** Hərbi Dəniz Qüvvələrinin tərkibi və əsas vəzifələri barədə təqdimat edin.

**VI qrup:** Azərbaycan Ordusunun hərbi təhsil müəssisələri barədə təqdimat edin.

### Məlumat mübadiləsi və müzakirəsi (21 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təqdim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Bu mərhələdə məqsəd şagirdlərdə hərbi-vətənpərvərlik əhvali-ruhiyyəsini yüksəltmək, Ordumuza olan inam hissini artırmaq və hərbi xidmətin növlərini izah etməkdir.

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):




LAYİHƏ

**Qiymətləndirmə (2 dəqiqə):**

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup | VI qrup |
|---|---|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | | | |
| Əməkdaşlıq edir | | | | | | |
| Azərbaycan Ordusunun tərkibi və əsas vəzifələri barədə təqdimat edir | | | | | | |
| Yekun qiymət | | | | | | |

**Qiymətləndirmə:**

| I | II | III | IV |
|---|---|---|---|
| Azərbaycan Ordusu barədə çətinliklə təqdimat edir | Azərbaycan Ordusu barədə qismən təqdimat edir | Azərbaycan Ordusu barədə təqdimat edir | Azərbaycan Ordusu barədə nümunələr göstər məklə təqdimat edir |

**Ev tapşırığı:**

Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsindəki döyüş uğurları barədə təqdimat hazırlayın.

LAYİHƏ

## İŞ VƏRƏQİ NÜMUNƏSİ

**I qrup:** Quru Qoşunları barədə təqdimat edin.

| | |
|---|---|
| Yaranması | |
| Tərkibi | |
| Məqsəd və vəzifələri | |

LAYİHƏ

## MÖVZU: 3
# BAŞQA SİLAHLI BİRLƏŞMƏLƏR

**Standart:**

1.1.2. Azərbaycan Silahlı Qüvvələri və başqa silahlı birləşmələr barədə təqdimat edir.

**Dərsin məqsədi:**

– Başqa silahlı birləşmələrin təyinatı, tərkibi və əsas vəzifələri barədə təqdimat etmək.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv və kiçik qruplarla iş* |
| **İş üsulu:** | *Beyin həmləsi, təqdimat, Venn diaqramı* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

**Motivasiya (3 dəqiqə):**

Beyin həmləsindən istifadə edilərək fotoşəkil barədə fikir və mülahizələr dinlənilir.

**Başqa Silahlı Birləşmələr**



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları








LAYİHƏ

### Tədqiqat sualı:

Başqa silahlı birləşmələri yaranma zərurəti və təyinatına görə necə şərh edərsiniz?

### Tədqiqatın aparılması (7 dəqiqə):

**Tapşırıq:**

**I qrup:** Daxili qoşunlar barədə təqdimat edin.

**II qrup:** Dövlət Sərhəd Xidməti barədə təqdimat edin.

**III qrup:** Xüsusi Dövlət Mühafizə Xidməti barədə təqdimat edin.

**IV qrup:** Mülki Müdafiə Qoşunları barədə təqdimat edin.

### Məlumat mübadiləsi və müzakirəsi (21 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təqdim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Bu mərhələdə məqsəd şagirdlərdə hərbi-vətənpərvərlik əhvali-ruhiyyəsini yüksəltmək, başqa silahlı birləşmələri təyinatına görə tanımaq və xüsusi təhsil sistemi barədə məlumat almaqdır.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin sərhədlərini mühafizəsində, ictimai asayişin qorunmasında, təbii fəlakətlərin aradan qaldırılmasında xüsusi rolu var.

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):




LAYİHƏ

### Qiymətləndirmə (2 dəqiqə):

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | |
| Əməkdaşlıq edir | | | | |
| Silahlı Qüvvələrin tərkibi və əsas vəzifələri barədə təqdimat edir | | | | |
| Yekun qiymət | | | | |

### Qiymətləndirmə:

| I | II | III | IV |
|---|---|---|---|
| Başqa silahlı birləşmələr barədə çətinliklə təqdimat edir | Başqa silahlı birləşmələr barədə qismən təqdimat edir | Başqa silahlı birləşmələr barədə təqdimat edir | Başqa silahlı birləşmələr barədə nümunələr göstərməklə təqdimat edir |

### Ev tapşırığı:

Başqa silahlı birləşmələrin 44 günlük Vətən müharibəsindəki döyüş uğurları barədə təqdimat hazırlayın.

LAYİHƏ

## MÖVZU: 4
# HƏRBİ ATRİBUTLAR

### Standart:

1.1.2. Dövlət və hərbi atributları tanıyır və onları şərh edir.

### Dərsin məqsədi:

– Hərbi hissələrin Döyüş bayrağı, onların rəmzi mənalarını şərh etmək.
– Hərbi tərkiblərə görə hərbi rütbələri fərqləndirmək.
– Hərbi rütbələr və onların rəmzi mənalarını şərh etmək.

| | |
|---|---|
| **İş forması:** | *Cütlərlə iş* |
| **İş üsulu:** | *Təqdimat, şərh, rollu oyun* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

### Dərsin gedişi:

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

### Motivasiya (3 dəqiqə):

Şəkil barədə fikirləri dinləyirəm. Dövlət rəmzlərimiz və şəkil arasındakı əlaqə hədəf götürülür.









LAYİHƏ

**Tədqiqat sualı:**

Hərbi atributların növlərini və daşınma qaydalarını necə şərh edərsiniz?

**Tədqiqatın aparılması (15 dəqiqə)**

**Tapşırıq:**

**I cüt:** Hərbi hissənin Döyüş bayrağının rəmzi mənasını, təsvirini və saxlan masıqaydalarını şərh edin.

**II cüt:** Silahlı Qüvvələrin embleminin təsvirini və istifadə qaydalarını şərh edin.

**III cüt:** Hərbi geyim formasının təsvirini və daşınma qaydalarını şərh edin.

**IV cüt:** Əsgərlər və matroslara verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**V cüt:** Çavuşlara verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**VI cüt:** Gizirlər və miçmanlara verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**VII cüt:** Kiçik zabitlərə verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**VIII cüt:** Baş zabitlərə verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**IX cüt:** Ali zabitlərə verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

**Məlumat mübadiləsi və müzakirəsi (15 dəqiqə):**

Cütlərin şərhləri dinlənilir. Maraq doğuran suallar müzakirə edilir.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması (2 dəqiqə)**

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Bu mərhələdə məqsəd şagirdlərdə vətənpərvərlik əhvali-ruhiyyəsini yüksəltmək, hərbi atributlara sevgi aşılamaq, hərbi geyimlərlə tanış etmək və hərbi rütbələrimiz barədə informa siya verməkdir.

**Yaradıcı tətbiqetmə (5 dəqiqə)**

Rollu oyun təşkil edərək hərbi and qəbul edilir.

LAYİHƏ

### Ev tapşırığı

Hərbi rütbələri iş dəftərinizə çəkin.

### Qiymətləndirmə (2 dəqiqə)

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Cütlər / Meyarlar | I cüt | II cüt | III cüt | IV cüt | V cüt | VI cüt | VII cüt | VIII cüt | IX cüt |
|---|---|---|---|---|---|---|---|---|---|
| Döyüş bayrağını şərh edir | | | | | | | | | |
| Hərbi geyim barədə məlumat verir | | | | | | | | | |
| Hərbi rütbələri şərh edir | | | | | | | | | |
| Yekun qiymət | | | | | | | | | |

### Qiymətləndirmə:

| I | II | III | IV |
|---|---|---|---|
| Hərbi atributları çətinliklə şərh edir | Hərbi atributları qismən şərh edir | Hərbi atributları şərh edir | Hərbi atributları nümunələr göstərməklə şərh edir |

LAYİHƏ

## İŞ VƏRƏQİ NÜMUNƏLƏRİ

**I cüt:** Hərbi hissənin Döyüş bayrağının rəmzi mənasını, təsvirini və saxlanması qaydalarını şərh edin.

| Tədqiqat predmeti | Ümumi məlumat |
|---|---|
| Döyüş bayrağının rəmzi mənası | |
| Döyüş bayrağının təsviri və sax lanma qaydaları | |

**II cüt:** Silahlı Qüvvələrin embleminin təsvirini və istifadə qaydalarını şərh edin.

| Tədqiqat predmeti | Ümumi məlumat |
|---|---|
| Təsviri | |
| İstifadə qaydaları | |

**III cüt:** Hərbi geyim formasının təsvirini və daşınma qaydalarını şərh edin.

| Tədqiqat predmeti | Ümumi məlumat |
|---|---|
| Təsviri | |
| Daşınma qaydaları | |

**IV cüt:** Əsgərlər və matroslara verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edir.

| Tədqiqat predmeti | Ümumi məlumat |
|---|---|
| Əsgər | |
| Baş əsgər | |
| Kursantlar | |

LAYİHƏ

**V cüt:** Çavuşlara verilən hərbi rütbələrin təsvirini və daşınma qaydalarını şərh edin.

| Tədqiqat predmeti | Ümumi məlumat | Rütbələrin təsviri |
|---|---|---|
**IV qrup:** Boğucu təsirli zəhərləyici maddələrin təsir prinsipini şərh edin.
**V qrup:** Qıcıqlandırıcı zəhərləyici maddələrin təsir prinsipini şərh edin.
**VI qrup:** Xəstəlik törədən mikroblar və onlardan alınan zəhər-toksinlərin təsir prinsipini şərh edin.

**Məlumat mübadiləsi və müzakirəsi (15 dəqiqə):**

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təq dim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):**

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır.

Zəhərləyici maddələr və onların döyüş məqsədilə tətbiq vasitələri kimyəvi silah adlanır. Kimyəvi silahın zəhərləyici təsirinin əsasını zəhərləyici maddələr təşkil edir. Zəhərləyici maddələr (ZM) kimyəvi birləşmələr olub, mühafizə olunmamış canlı qü vvənin zədələnməsinə və ya onun döyüş qabiliyyətinin azalmasına, texnikanın və ərazinin zəhərlənməsinə səbəb olur.

İçərisində bakterioloji vasitələr olan hərbi sursat havada duman və ya tüstü sə killi aerozol buludu yaradır. Onun zədələyici təsiri tətbiq edilən xəstəliktörədicidən, ərazinin relyefindən, meteoroloji şəraitindən və s. asılıdır.

**Yaradıcı tətbiqetmə (5 dəqiqə):**

Kimyəvi silah barədə video izlənilir.
https://www.youtube.com/watch?v=CSyLFqa0ctM

**Qiymətləndirmə (2 dəqiqə):**

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup | VI qrup |
|---|---|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | | | |
| Əməkdaşlıq edir | | | | | | |
| Kimyəvi və bakterioloji (bioloji) si lahların təsir prinsiplərini şərh edir | | | | | | |
| Yekun qiymət | | | | | | |

LAYİHƏ

**Qiymətləndirmə:**

| I | II | III | IV |
|---|---|---|---|
| Kimyəvi silahın təsir prinsipini çə tinliklə şərh edir | Kimyəvi silahın təsir prinsipini qismən şərh edir | Kimyəvi silahın təsir prinsipini şərh edir | Kimyəvi silahın təsir prinsipini nümunələr göstərməklə şərh edir |
| Bakterioloji (bioloji) silahların təsir prinsipini çə tinliklə şərh edir | Bakterioloji (bioloji) silahların təsir prinsipini qismən şərh edir | Bakterioloji (bi oloji) silahların təsir prinsipini şərh edir | Bakterioloji (bioloji) si lahların təsir prinsipini nümunələr göstər məklə şərh edir |

**Ev tapşırığı:**

Kimyəvi və bakterioloji (bioloji) silahların təyyarə bombaları, top gülləleri, raket lər vasitəsi ilə atılmasına dair məlumatlar toplayın.

**Əlavə 1 vərəq***: iş vərəqi nümunələri*

**I qrup:** Sinir iflicedici zəhərləyici maddələrin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

**II qrup:** Ümumzəhərləyici təsirli zəhərləyici maddələrin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

LAYİHƏ

**III qrup:** Dəridə yara çıxaran zəhərləyici maddələrin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

**IV qrup:** Boğucu təsirli zəhərləyici maddələrin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

**V qrup:** Qıcıqlandırıcı zəhərləyici maddələrin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

**VI qrup:** Xəstəlik törədən mikroblar və onlardan alınan zəhər-toksinlərin təsir prinsipini şərh edin.

| | |
|---|---|
| Xüsusiyyətləri | |
| Tətbiq qaydaları | |
| Təsir müddəti | |
| Fəsadları | |

LAYİHƏ

MÖVZU: 33

# FƏRDİ MÜHAFİZƏ VASİTƏLƏRİ

**Standart:**

2.5.1. Fərdi mühafizə vasitələri haqqında biliklərini şərh edir.

**Dərsin məqsədi:**

– İnsan sağlamlığını qorumaq üçün geniş istifadə edilən ümumi və xüsusi fərdi mühafizə vasitələrini tanıyır və təyinatına görə şərh edir.

| | |
|---|---|
| **İş forması:** | *Böyük qruplarla iş* |
| **İş üsulu:** | *Müzakirə, təqdimat, şərh* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

**Motivasiya (5 dəqiqə):**

Şəkil barədə fikirlər dinlənilir, müzakirələr aparılır.



LAYİHƏ

### Tədqiqat sualı:

Kütləvi qırğın silahlarından mühafizə vasitəsi dedikdə nə başa düşürsünüz?

### Tədqiqatın aparılması (10 dəqiqə):

**Tapşırıq:**
**I qrup:** Tənəffüs orqanlarını müdafiə edən fərdi mühafizə vasitələrini şərh edin.
**II qrup:** Dərinin mühafizə vasitələrini şərh edin.
**III qrup:** Fərdi tibbi mühafizə vasitələrini şərh edin.

### Məlumat mübadiləsi və müzakirəsi (15 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təq dim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Unutmaq olmaz ki, fərdi mühafizə vasitələri, hadisənin baş vermə ehtimalını azaltmır, o, sadəcə ondan istifadə edən şəxsi müəyyən dərəcədə qoruyur və riskin nəticəsinə təsir edir.

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):

Şagirdlər əleyhqazın, yaxud respiratorun geyinilməsini normativlər cədvəlinə uyğun icra edirlər (Əgər əleyhqaz və respirator yoxdursa, toz əleyhinə maska düzəldilir).

| Nor mativ № si | Normati vin adı | Normativin yerinə yetirilmə şərti (qaydası) | Vaxta görə qiymət | | |
|---|---|---|---|---|---|
| | | | **Əla** | **Yaxşı** | **Kafi** |
| F.1 | Əleyhqa zın, yaxud respirato run geyi nilməsi | Gözlənilmədən «**Qazlar!**» və ya «**Respiratoru geyin!**» komandası verilir. Öyrədilənlər əleyhqazları və ya respiratorları geyinirlər. Vaxt komanda verilən andan baş geyiminin geyinilməsinədək he sablanır.<br>**Qeyd:** Surətdə əleyhqazın, məxrəcdə isə respiratorun geyinil mə vaxtı göstərilib | 7 san<br>11 san | 8 san<br>12 san | 10 san<br>14 san |

LAYİHƏ

### Qiymətləndirmə (2 dəqiqə):

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup |
|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | |
| Əməkdaşlıq edir | | | |
| Fərdi mühafizə vasitələrini şərh edir | | | |
| Yekun qiymət | | | |

### Qiymətləndirmə:

| I | II | III | IV |
|---|---|---|---|
| Fərdi mühafizə vasitələrini çətin liklə şərh edir | Fərdi mühafizə vasitələrini qis mən şərh edir | Fərdi mühafizə vasitələrini şərh edir | Fərdi mühafizə va sitələrini nümunələr göstərməklə şərh edir |

### Ev tapşırığı:

Fərdi mühafizə vasitələrindən istifadə zərurətinin yaranma tarixi barədə araş dırma aparın.

LAYİHƏ

## MÖVZU: 34

# KOLLEKTİV MÜHAFİZƏ QURĞULARI

**Standart:**

2.5.2. Kollektiv mühafizə vasitələri haqqında biliklərini nümayiş etdirir.

**Dərsin məqsədi:**

– Kütləvi qırğın silahlarının, habelə adi qırğın silahlarının törətdiyi təhlükələrdən əhalini qorumaq üçün yaradılan xüsusi mühafizə qurğularını sadalayır.
– Mühafizə qurğularına sığınma qaydalarını izah edir.

| | |
|---|---|
| **İş forması:** | *Müzakirə, qruplarla iş* |
| **İş üsulu:** | *Nümayiş, şərh* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

**Motivasiya (5 dəqiqə):**



**Tədqiqat sualı:**

Mühafizə qurğuları inşa edilərkən nələrə üstünlük verilir?

**Tədqiqatın aparılması (10 dəqiqə):**

**Tapşırıq:**

**I qrup:** Sığınacaqların təyinatı, quruluşu və mühafizə xassələrini şərh edir.

**II qrup:** Radiasiya daldalanacaqlarının təyinatı, quruluşu və mühafizə xassələrini şərh edir.

LAYİHƏ

**III qrup:** Sadə daldalanacaqların təyinatı, quruluşu və mühafizə xassələrini şərh edir.

**IV qrup:** Mühafizə qurğularına sığınma qaydalarını izah edir.

### Məlumat mübadiləsi və müzakirəsi (15 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təqdim edirlər.

Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır. Unutmaq olmaz ki, kollektiv mühafizə vasitələri, hadisənin baş vermə ehtimalını azaltmır, o, sadəcə onlardan istifadə edən şəxsləri müəyyən dərəcədə qoruyur və riskin nəticəsinə təsir edir.

### Yaradıcı tətbiqetmə (10 dəqiqə):

Şagirdlər şərti olaraq “Hava hücumu” siqnalı üzrə sinifdən təxliyə olaraq şərti mühafizə qurğusunda daldalanırlar.

### Qiymətləndirmə (2 dəqiqə):

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir. | | | | |
| Əməkdaşlıq edir. | | | | |
| Mülkü mühafizə qurğularını şərh edir. | | | | |
| Yekun qiymət | | | | |

### Qiymətləndirmə:

| I | II | III | IV |
|---|---|---|---|
| Mülkü mühafizə qurğularını çətin liklə şərh edir | Mülkü mühafizə qurğularını qis mən şərh edir | Mülkü müha fizə qurğularını şərh edir | Mülkü mühafizə qur ğularını nümunələr göstərməklə şərh edir |

### Ev tapşırığı:

Fövqəladə hallara hazırlıq çantası (ehtiyat çantası) hazırlayın.
https://www.fhn.gov.az/?aze/menu/26/343

LAYİHƏ

## İŞ VƏRƏQİ NÜMUNƏSİ

**I qrup:** Sığınacaqların təyinatı, quruluşu və mühafizə xassələrini şərh edin.

| | |
|---|---|
| **Təyinatı** | |
| **Yerləşməsi** | |
| **Tikilmə müddəti** | |
| **Mühafizə xassələri** | |

LAYİHƏ

**II qrup:** Radiasiya daldalanacaqlarının təyinatı, quruluşu və mühafizə xassələrini şərh edin.

| | |
|---|---|
| **Təyinatı** | |
| **Quruluşu** | |
| **Mühafizə xassələri** | |

LAYİHƏ

**III qrup:** Sadə daldalanacaqların təyinatı, quruluşu və mühafizə xassələrini şərh edin.

| | |
|---|---|
| **Təyinatı** | |
| **Quruluşu** | |
| **Mühafizə xassələri** | |

LAYİHƏ

**IV qrup:** Mühafizə qurğularına sığınma qaydalarını izah edin.

| | |
|---|---|
| **Sığınma barədə ilk məlumat necə verilir?** | |
| **Siqnal eşidilərsə, nə etməli?** | |
| **Daldalanma prosesi necə icra olunur?** | |

LAYİHƏ

## MÖVZU: 35
# SAĞLAM HƏYAT TƏRZİ

**Standart:**

3.1.1. Sağlam həyat tərzini təşkil edən amillər haqqında biliklərini nümayiş etdirir.

**Dərsin məqsədi:**

– Sağlamlığın növlərini izah edilir.
– Sağlamlığı formalaşdıran faktorlar sadalanır.
– Sağlam həyat tərzi uğrunda mübarizəyə dair şəxsi fikirlər bildirilir.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv iş* |
| **İş üsulu:** | *İzah, klaster, sual-cavab, müzakirə* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

**Dərsin gedişi:**

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

**İzah (5 dəqiqə):**

Sağlam həyat tərzi hər kəs üçün fərqli bir anlam ifadə edir. Ümumiyyətlə, sağlam həyat tərzi bir insanın fiziki və əqli rifahının təmin edilməsi ilə həyatı yaxşı yaşamasına imkan verən bir tərzdir. Gənclər üçün uşaqlıq və yeniyetməlik dövründə baş verən müxtəlif risk faktorları vardır ki, bu da çox vaxt qeyri-kafi qidalanmaya, fiziki fəaliyyətin olmamasına, yaxud aludəçiliyə gətirib çıxara bilər – bunların hamısının nəticəsi onların həyatlarının qalan hissəsində də davam edə bilər. Həyatının çox erkən illərində işləməyə başlayan gənclər peşə sağlamlığı riski ilə üzləşirlər və bu da bəzən həyat boyu davam edəcək müəyyən nəticələrə gətirib çıxara bilər.

**Motivasiya (5 dəqiqə):**

Lövhədə "Sağlamlığı formalaşdıran faktorlar" sözü yazılır və şagirdlərin fikirləri şaxələndirilir.




LAYİHƏ

### Tədqiqat sualı:

Sağlamlıq uğrunda necə mübarizə aparmaq olar?

**Tədqiqatın aparılması:**

**I sual:** Sağlamlığın formalarını necə sadalayardınız?

**II sual:** Həyat və fəaliyyətin rejimə salınması faktorunun sağlamlığın formalaşmasında rolu?

**III sual:** Orqanizmin ümumi gigiyenası faktorunun sağlamlığın formalaşmasında rolu?

**IV sual:** Rasional qidalanma faktorunun sağlamlığın formalaşmasında rolu?

**V sual:** Zərərli vərdişlərdən imtina faktorunun sağlamlığın formalaşmasında rolu?

**VI sual:** Ətraf mühit faktorunun sağlamlığın formalaşmasında rolu?

### Məlumat mübadiləsi və müzakirəsi (20 dəqiqə):

Suallara uyğun müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır.

İnsan özü özünün həkimi olmalı, öz sağlamlığının qeydinə qalmalıdır. Yaşının erkən çağından başlayaraq sağlam həyat tərzi sürməli, orqanizmi möhkəmləndirməli, idmanla məşğul olmalı, fərdi gigiyena qaydalarına riayət etməli, bir sözlə, sağlam yaşamağa nail olmalıdır.

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):

Sağlam həyat tərzi barədə video izlənilir.

https://www.youtube.com/watch?v=4nFbtgM4yhg

### Qiymətləndirmə (2 dəqiqə):

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlam həyat tərzini təşkil edən amilləri çətinliklə şərh edir | Sağlam həyat tərzini təşkil edən amilləri qismən şərh edir | Sağlam həyat tərzini təşkil edən amilləri şərh edir | Sağlam həyat tərzini təşkil edən amillər nümunələr göstərməklə şərh edir |

### Ev tapşırığı:

“Zərərli vərdişlər və onlarla mübarizə” mövzusunda esse yazın.

LAYİHƏ

## MÖVZU: 36
# YARALILARA İLK TİBBİ YARDIM

### Standart:

3.2.1. Yaralanma və bədbəxt hadisə zamanı zərərçəkənlərə ilk tibbi yardım göstərir.

### Dərsin məqsədi:

– Odlu silah yaralarının növlərini sadlayır.
– Qanaxmalar zamanı sarğı qoymaq qaydalarına əməl edir.
– Yaralanmalar zamanı zərərçəkənlərə ilk tibbi yardım göstərir.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv, kiçik qruplarla və cütlərlə iş* |
| **İş üsulu:** | *Beyin həmləsi, təqdimat, praktiki iş* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

### Dərsin gedişi:

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

### Motivasiya (3 dəqiqə):

Beyin həmləsindən istifadə edilərək fotoşəkil barədə fikir və mülahizələr dinlənilir.




LAYİHƏ

## Tədqiqat sualı:

Yarasının növünü və fəsadlarını nəzərə alaraq yaralıya necə yardım edərdiniz?

## İzah (3 dəqiqə):

Odlu silah yaralanması və ya bədbəxt hadisə zamanı ən çox mexaniki travmalar və onun fəsadı kimi qanaxmalar və kəskin qanitirməyə rast gəlinir. Müxtəlif səbəblərdən qanın öz yatağını tərk etməsinə, yəni damar divarından axmasına qanaxma deyilir. İstənilən güclü qanaxma zamanı əsas təhlükə orqanizmdə qanın kəskin azalması nəticəsində ürək fəaliyyətinin pisləşməsi, bütün həyati vacib orqanların (qara ciyər, böyrəklər, xüsusən də baş beyinin) oksigen çatışmazlığından zərər çəkməsidir. Bu zaman beyin damarlarının spazmı və huşun itirilməsi də baş verə bilər. Qanaxmalar üç cür olur.

## Tədqiqatın aparılması(5 dəqiqə):

**Tapşırıq:**

**I qrup:** Odlu silahdan yaralanmanın fəsadları və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**II qrup:** Arterial qanaxmanın xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**III qrup:** Venoz qanaxmanın xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**IV qrup:** Kapilyar qanaxmanın xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**V qrup:** Burun qanaxmasının xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**VI qrup:** Sarğıların xüsusiyyətləri və bint sarımağın qaydaları barədə təqdimat edin.

## Məlumat mübadiləsi və müzakirəsi (20 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təqdim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

## Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır.

Baş verə biləcək yaralanmalar zamanı özlərinə və yaxınlığındakı zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi qaydalarını tətbiq etməyi hər bir gənc bacarmalıdır.

LAYİHƏ

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):

Cütlər şəklində rollu oyun icra olunur. Yaralı rolunda olan yoldaşına ilk tibbi yardım göstərilir.



### Qiymətləndirmə (2 dəqiqə):

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup | VI qrup |
|---|---|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | | | |
| Əməkdaşlıq edir | | | | | | |
| Yaralanmalar zamanı zərərçəkənlərə ilk tibbi yardım göstərir | | | | | | |
| Yekun qiymət | | | | | | |

### Qiymətləndirmə:

| I | II | III | IV |
|---|---|---|---|
| Yaralılara çətin liklə ilk tibbi yar dım göstərir | Yaralılara qis mən ilk tibbi yar dım göstərir | Yaralılara ilk tibbi yardım göstərir | Yaralılara nümunəvi ilk tibbi yardımı göstə rir |

### Ev tapşırığı:

Linkə daxil olaraq qanaxmalar zamanı ilkin tibbi yardım qaydaları ilə tanış olun.
https://www.fhn.gov.az/?aze/menu/27/338

LAYİHƏ

## İŞ VƏRƏQİ NÜMUNƏSİ

**I qrup:** Odlu silahdan yaralanmanın fəsadları və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

| | |
|---|---|
| **Növləri** | |
| **Fəsadları** | |
| **İlk tibbi yardım qaydaları** | |

**II qrup**: Arterial qanaxmanın xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

| | |
|---|---|
| **Xüsusiyyətləri** | |
| **İlk tibbi yardım qaydaları** | |

LAYİHƏ

## MÖVZU: 37
# ZƏDƏLƏNMƏDƏ İLK TİBBİ YARDIM

### Standart:

3.2.2. Radioaktiv və kimyəvi maddələrdən zədələnmələr zamanı ilk tibbi yar dım göstərir.

### Dərsin məqsədi:

– Törənmə səbəblərinə görə zədələnmələri fərqləndirir.
– Zədələnənlərə ilk tibbi yardım göstərir.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv, kiçik qruplarla və cütlərlə iş* |
| **İş üsulu:** | *İzah, klaster, təqdimat, praktiki iş* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

### Dərsin gedişi:

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

### Motivasiya (3 dəqiqə):

Lövhədə “Zədələnmələr” sözü yazılır və şagirdlərin zədələnmələrin törənmə səbəbləri barədə fikirləri dinlənilir.




LAYİHƏ

### Tədqiqat sualı:

Zədənin növünü və xüsusiyyətini nəzərə alaraq ilk tibbi yardım necə göstərilir?

### Tədqiqatın aparılması (5 dəqiqə):

**Tapşırıq:**

**I qrup:** Mexaniki zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**II qrup:** Termik zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**III qrup:** Kimyəvi maddələrdən zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**IV qrup:** Radioaktiv (şüa) zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**V qrup:** Elektrikdən zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

**VI qrup:** Qarışıq zədələnmələrin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

### Məlumat mübadiləsi və müzakirəsi (20 dəqiqə):

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təqdim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

### Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır.

Baş verə biləcək zədələnmələr zamanı özlərinə və yaxınlığındakı zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi qaydalarını tətbiq etməyi hər bir gənc bacarmalıdır.

### Yaradıcı tətbiqetmə (5 dəqiqə):

Cütlər şəklində rollu oyun icra olunur. Zədələnmiş rolunda olan yoldaşına ilk tibbi yardım göstərilir.

LAYİHƏ

**Qiymətləndirmə (2 dəqiqə):**

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup | VI qrup |
|---|---|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | | | |
| Əməkdaşlıq edir | | | | | | |
| Zədələnmələr zamanı zərərçəkənlərə ilk tibbi yardım göstərir | | | | | | |
| Yekun qiymət | | | | | | |

**Qiymətləndirmə:**

| I | II | III | IV |
|---|---|---|---|
| Zədələnənlərə çətinliklə ilk tibbi yardım göstərir | Zədələnənlərə qismən ilk tibbi yardım göstərir | Zədələnənlərə ilk tibbi yardım göstərir | Zədələnənlərə nümunəvi ilk tibbi yardım göstərir |

**Ev tapşırığı:**

Linklərə daxil olaraq sınıqlar zamanı əlaltı vasitələrlə ilkin tibbi yardım qaydaları ilə tanış olun.

https://www.youtube.com/watch?v=kFBIiV5q1Gg
https://www.youtube.com/watch?v=xWY2bozYlSM

LAYİHƏ

## İŞ VƏRƏQİ NÜMUNƏSİ

**I qrup:** Mexaniki zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

| | |
|---|---|
| **Xüsusiyyətləri** | |
| **İlk tibbi yardım qaydaları** | |

**II qrup:** Termik zədələnmənin xüsusiyyətləri və ilk tibbi yardımın göstərilməsi barədə təqdimat edin.

| | |
|---|---|
| **Xüsusiyyətləri** | |
| **İlk tibbi yardım qaydaları** | |

LAYİHƏ

## MÖVZU: 38

# BİOLOJİ VASİTƏLƏRDƏN MÜHAFİZƏ

### Standart:

3.2.3. Bioloji vasitələrdən və yoluxucu xəstəliklərdən mühafizə qaydalarına əməl edir.

### Dərsin məqsədi:

– Yoluxucu xəstəliklərin növlərini və fəsadlarını sadalayır.
– Yoluxucu xəstəliklərə qarşı mühafizə qaydalarına əməl edir.
– Zəhərlənənlərə ilk tibbi yardım göstərir.

| | |
|---|---|
| **İş forması:** | *Kollektiv, kiçik qruplarla, cütlərlə iş* |
| **İş üsulu:** | *İzah, klaster, təqdimat, praktiki iş* |
| **Resurslar:** | *Dərslik, plakatlar, iş dəftəri, iş vərəqləri* |

### Dərsin gedişi:

Giriş hissə (3-5 dəqiqə): Bircərgə düzülüş, raport, salamlaşma.

### Motivasiya (3 dəqiqə):

Lövhədə "Bioloji vasitələr və onların fəsadları" sözü yazılır və fikirləri dinlənilir.




### Tədqiqat sualı:

Zəhərlənmələrin növlərini və fəsadlarını nəzərə alaraq ilk tibbi yardım necə göstərilir?

### Tədqiqatın aparılması (5 dəqiqə):

**Tapşırıq:**
**I qrup:** Bakteriyaların fəsadları və mühafizə qaydalarını şərh edin.
**II qrup:** Virusların (koronovirusun) təzahürləri və mühafizə qaydalarını şərh edin.
**III qrup:** Zəhərli heyvanların dişləməsi nəticəsində yaranan fəsadlar və onlardan mühafizə qaydalarını şərh edin.
**IV qrup:** Qida zəhərlənməsi nəticəsində yaranan fəsadlar və onlardan mühafizə qaydalarını şərh edin.
**V qrup:** İlan sancmaları nəticəsində yaranan fəsadlar və onlardan mühafizə qaydalarını şərh edin.
**VI qrup:** Dəm qazından zəhərlənmə nəticəsində yaranan fəsadlar və onlardan mühafizə qaydalarını şərh edin.

LAYİHƏ

**Məlumat mübadiləsi və müzakirəsi (20 dəqiqə):**

Hər qrup öz tapşırığı üzrə tədqiqat aparır. Tədqiqat işlərini digər qruplara təq dim edirlər. Digər qrupların suallarına görə qruplar arasında müzakirə təşkil olunur.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması (3 dəqiqə):**

Şagirdlərlə birlikdə dərs ümumiləşdirilir və nəticələr çıxarılır.

Baş verə biləcək zəhərlənmələr zamanı özlərinə və yaxınlığındakı zərərçəkən lərə ilk tibbi yardım göstərilməsi və mühafizə qaydalarını hər bir gənc bacarmalıdır.

**Yaradıcı tətbiqetmə (5 dəqiqə):**

Rollu oyun icra olunur. Dəm qazından zəhərlənmiş rolunda olan yoldaşını zəh rlənmədən mühafizə edilir və ilk tibbi yardım göstərilir.

https://www.fhn.gov.az/index.php?aze/news/xeber/2013/1/10/5184/

**Qiymətləndirmə (2 dəqiqə):**

Qiymətləndirmə apararkən aşağıdakı meyarları diqqətdə saxlayıram:

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup | VI qrup |
|---|---|---|---|---|---|---|
| Vaxtdan səmərəli istifadə edir | | | | | | |
| Əməkdaşlıq edir | | | | | | |
| Zəhərlənmələr zamanı özünü və zərərçəkənləri mühafizə edə bilir | | | | | | |
| Yekun qiymət | | | | | | |

**Qiymətləndirmə:**

| I | II | III | IV |
|---|---|---|---|
| Zəhərlənənlərə çətinliklə ilk tibbi yardım göstərir | Zəhərlənənlərə qismən ilk tibbi yardım göstərir | Zəhərlənənlərə ilk tibbi yardım göstərir | Zəhərlənənlərə nü munəvi ilk tibbi yardı mı göstərir |

**Ev tapşırığı:**

Linkə daxil olaraq zəhərlənmələrdə həkim gələnə qədər ilk tibbi yardım qayda ları ilə tanış olun.

https://www.youtube.com/watch?v=LTogC6RN5aE

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 1

**Hərbi xidmətin əsasları (1.1, 1.2, 1.3)**

*15 sual, cəmi 100 bal )*

**1. Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi nə vaxtdır? (5 bal)**

a) 28 may 1918-ci il
b) 9 oktyabr 1991-ci il
c) 26 iyun 1918-ci il
d) 31 dekabr 1918-ci il

**2. Əsgər, matros və çavuşlar üçün aşağıdakı intizam cəzalarından hansı müəyyən edilmir? (5 bal)**

a) Töhmət
b) Şiddətli töhmət
c) Ciddi xəbərdarlıq
d) Əlaçı döş nişanından məhrum etmək

**3. Əmr nədir? (5 bal)**

e) Yalnız məxfiləşdirilmiş rabitə avadanlıqları vasitəsi ilə daxil olan göstərişdir
f) Yalnız məxfi poçtla gələn yazılı göstərişdir
g) Rəisin yazılı və ya şifahi verdiyi göstərişdir
h) Rəisin yazılı verdiyi göstərişdir

**4. Hərbi qulluqçuların davranış mədəniyyətinə aid olmayanı qeyd edin. (5 bal)**

a) Mülki əhaliyə qarşı nəzakətli olmalı
b) Mülki vətəndaşların heç bir işinə qarışmamalı
c) İctimai qayda-qanunun saxlanmasına yardım etməli
d) Bədbəxt hadisə, yanğın və təbii fəlakət vaxtı əhaliyə kömək göstərməli.

**Sıranın neçə növü var və hansılardır? (6 bal)**

a) İki növü var. Açıq sıra və səfər sırası
b) Üç növü var. Açıq sıra, səfər sırası və mərasim sırası
c) Dörd növü var. Açıq sıra, səfer sırası, mərasim sırası və qarışıq sıra
d) Beş növü var. Açıq sıra, qapalı sıra, səfər sırası, mərasim sırası və qarışıq sıra

**6. Hərbi hissənin Döyüş Bayrağı hər bir əsgər üçün hansı əhəmiyyəti daşıyır? (6 bal)**

a) Hər bir əsgər üçün hərbi şərəf, şücaət və şöhrət simvoludur
b) Hər bir əsgər üçün mühafizəsi vacib olan atributdur

LAYİHƏ

c) Hər bir əsgər üçün hissənin nömrəsini və daimi dislokasiya yerini bilməsi üçün vacib olan atributdur

d) Hər bir əsgər üçün günün başlanması zamanı təntənə ilə qaldırılması, axşam isə endirilməsi vacib olan atributdur

**7. AR Silahlı Qüvvələrinin Nizamnamələri hansı tarixdə təsdiq olunmuşdu? (6 bal)**

a) 20 sentyabr 1993-cü ildə

b) 23 sentyabr 1994-cü ildə

c) 12 noyabr 1995-ci ildə

d) 9 oktyabr 1992-ci ildə

**8. Addımla yerişin normal tempi və addımın ölçüsü hansıdır? (6 bal)**

a) Addımla yerişin normal tempi dəqiqədə 110-120 addım, addımın ölçüsü 70-80 sm olmalıdır

b) Addımla yerişin normal tempi dəqiqədə 100-110 addım, addımın ölçüsü 65-70 sm olmalıdır

c) Addımla yerişin normal tempi dəqiqədə 120-130 addım, addımın ölçüsü 75-85 sm olmalıdır

d) Addımla yerişin normal tempi dəqiqədə 130-140 addım, addımın ölçüsü 80-85 sm olmalıdır

**9. Hansı kiçik zabit rütbəsidir? (6 bal)**

a) Kapitan

b) Mayor

c) Admiral

d) Baş gizir

**10. Azərbaycan Respublikasının Dövlət Gerbi hansı tarixdə təsdiq edilmişdir? (7 bal)**

a) 1918-ci il oktyabrın 19-da

b) 1919-cu il dekabrın 19-da

c) 1993-cü il yanvarın 19-da

d) 1995-ci il noyabrın 19-da

**11. Hansı baş zabit rütbəsidir? (7 bal)**

a) Kapitan

b) Mayor

c) Admiral

d) Baş gizir

LAYİHƏ

**12. Hərbi kadrların hazırlandığı təhsil müəssisələrinə aid deyil? (8 bal)**

a) Milli Aviasiya Akademiyası
b) Heydər Əliyev adına Hərbi Lisey
c) Cəmşid Naxçıvanski adına Hərbi Lisey
d) Heydər Əliyev adına Hərbi Universitet

**13. Fövqəladə Hallar Nazirliyinin mühüm qurumlarından biridir? (8 bal)**

a) Daxili Qoşunlar
b) Dövlət Sərhəd Xidməti
c) Mülki Müdafiə Qoşunları
d) Xüsusi Dövlət Mühafizə Xidməti

**14. Qarovul xidmətinə uyğun olmayan adları müəyyənləşdirin. (10 bal)**

1. Hərbi And
2. Saatdar
3. Növbətçi
4. Post

a) 1, 3
b) 2, 4
c) 1, 2
d) 3, 4

**15. Sıra Nizamnaməsinə uyğun olanı müəyyənləşdirin. (10 bal)**

1. Silahı əlindən verməmək
2. Təntənəli keçid
3. Müəyyən olunmuş marşrutla hərəkət etmək
4. Baxış üçün düzülmək
5. Hücumun dəf edilməsi

a) 1,5
b) 2,4
c) 1, 2
d) 3, 4

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 2

**Taktiki hazırlıq (2.1)**

*(20 sual, cəmi 100 bal)*

**1. Ümumqoşun döyüşünün əsas növləri hansılardır? (2 bal)**
a) Hücum və təqib
b) Hücum və manevr
c) Hücum və müdafiə
d) Hücum və dövrələmə

**2. Əsgər zəhərli ərazini necə keçməlidir? (2 bal)**
a) Sürünərək keçməlidir
b) Qaçışla çox cəld keçməlidir
c) Sıçrayışlarla qaçaraq keçməlidir
d) Zəhərli əraziyə yaxınlaşmamalıdır

**3. Atış yerini daha tez hazırlamaq üçün nədən yararlanmaq olar? (2 bal)**
a) Yaşıl otluqdan
b) Çuxurdan
c) Kolluqdan
d) Düzənlikdən

**4. Əsgər həmləni dəf etdikdən sonra hansı hərəkətləri yolverilməzdir? (2 bal)**
a) Silahını sahmana salır
b) Sərf olunan döyüş sursatını bərpa edir
c) Səngərin uçub-dağılmış yerlərini bərpa edir
d) Düşmənin məğlubiyyətini qeyd edir

**5. Manqa hansı qruplardan ibarətdir? (3 bal)**
a) Kəşfiyyat və manevr qrupundan
b) Manevr və həmlə qrupundan
c) Atəş və manevr qrupundan
d) Hücum və atəş qrupdan

**6. Kəşfiyyata xas olmayan tələblərdən deyil? (3 bal)**
a) Operativlik
b) Dəqiqlik
c) Gizlilik
d) Anilik

LAYİHƏ

**7. Mühafizə hansı yolla həyata keçirilmir? (3 bal)**

a) Müşahidə
b) Cüt patrullarla
c) Döyüşlə kəşfiyyat
d) Növbətçi atəş vasitələri

**8. Taktiki maskalanma hansı məqsədlə təşkil edilmir. (3 bal)**

a) Düşməni bölmələrimizin nə qədər güclü olduğundan xəbərdar etmək
b) Bölmələrin fəaliyyətinin qəfilliyinə nail olmaq
c) Bölmələrin həyatda qalma şansını artırmaq
d) Bölmələrin döyüş qabiliyyətini saxlamaq

**9. Hücumda əsgər döyüş tapşırığını alarkən nəyi aydınlaşdırmamalıdır? (5 bal)**

a) Hücumun istiqamətini
b) Düşmənin heyətini, yerini, fəaliyyətini
c) Hücuma hazır olmaq vaxtını
d) Bölüyün ehtiyatlarının yerini

**10. Paltarın, təchizatın və silahın üzərindən zəhərli maddələrin təmizlənməsi nə deməkdir? (5 bal)**

a) Dezinseksiya
b) Dezaktivasiya
c) Deqazasiya
d) Dezinfeksiya

**11. Atəş qrupunun tərkibinə hansı aid deyil? (5 bal)**

a) Baş atıcı
b) Komandir
c) Pulemyotçu
d) Qumbaraatan

**12. Müdafiədə duran əsgər əl qumbaralarını hücum edən düşmənə neçə metr qalmış atmalıdır? (5 bal)**

a) 30-40 m
b) 20-30 m
c) 25-40 m
d) 15-20 m

LAYİHƏ

**13. Motoatıcı manqanın döyüş düzülüşünə aid deyil? (5 bal)**

a) Manevr qrupu
b) Atəş qrupu
c) Kəşfiyyat qrupu
d) Piyadanın döyüş maşını

**14. БМП (BMP) tipli döyüş maşınının əsas heytinə aid olmayanı qeyd edin. (5 bal)**

a) Komandir
b) Qumbaraatan
c) Tuşlayıcı operator
d) Sürücü-mexanik

**15. БTR (BTR) tipli zirehli maşının üzərində hansı silahlar quraşdırılmışdır? (7 bal)**

1. 14,5 mm-lik КПВТ
2. 7,62 mm-lik PKT pulemyotu
3. 30 mm-lik avtomatik top
4. METİS tipli tank əley. idarəolunan raket

a) 1, 2  b) 1, 2, 3  c) 2, 3, 4  d) 3, 4

**16. Silah işarələrindən adlarına uyğun olmayanı qeyd edin. (7 bal)**

a) Piyada silahı

b) Zenit silahı

c) Qumbaraatan 

d) Tank əleyhinə silah

**17. Texnika işarələrdən hansı adına uyğun deyil? (8 bal)**

a) BMP (БМП)

b) Zirehsiz maşın

c) Tank 

d) BTR (БТР)

LAYİHƏ

**18. Bölmə işarələrdən adlarına uyğun olmayanı qeyd edin. (8 bal)**

a) Atıcı bölmə

b) Avtomobil üzərində bölmə

c) BTR (БТР) üzərində bölmə

d) Mexanikləşdirilmiş bölmə

**19. Açıq ərazidə düşmənin atəşi altında ona yaxınlaşaraq həmlə hüduduna çıxmaq üçün qaçaraq hərəkətdə məsafə orta hesabla neçə addım təşkil edir? (10 bal)**

a) 30-35 addım
b) 20-40 addım
c) 10-20 addım
d) 5-10 addım

**20. Kimya təminatı hansı məqsədlə həyata keçirilir? (Yanlış olanı qeyd edin) (10 bal)**

a) Düşmənin kütləvi qırğın silahlarının müvəqqəti susdurulması üçün
b) Bölmələrə kütləvi qırğın silahlarından zərərvurma amillərinin azaldılması üçün
c) Obyektlərdə dağıntıların təsirinin azaldılması üçün
d) Odsaçan-yandırıcı vasitələrlə düşmənə itkilərin verilməsi üçün

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 3

**Döyüş vasitələri (2.2)**

*(15 sual, cəmi 100 bal)*

**1. Fəzada uçarkən güllənin kütlə mərkəzinin cızdığı əyri xətt nə adlanır? (5 bal)**
a) Uçuş xətti
b) Tullama xətti
c) Trayektoriya
d) Müqavimət xətti

**2. Su maneələrinə aid olanı qeyd edin. (5 bal)**
a) Kontreskarp
b) Hasar
c) Şalban
d) Bataqlıq

**3. Avtomatda hissə və mexanizmlərin avtomatik işi nədən asılıdır? (5 bal)**
a) Maqazindəki yayın sərtliyindən
b) Barıt qazının enerjisindən
c) Ekstraktorun sürətindən
d) Çaxmaq tətiyini çəkmə tezliyindən

**4. Kalaşnikov avtomatının təyinatı hansıdır? (5 bal)**
a) Düşmənin artilleriya və minaatanlarını məhv etmək üçündür
b) Düşmənin yüngül zirehli texnikalarını məhv etmək üçündür
c) Fərdi silahdır. Düşmənin canlı qüvvəsini məhv etmək üçündür
d) Fərdi silahdır. Düşmənin mina sahəsindən keçid açmaq üçündür

**5. Güllənin başlanğıc sürəti nəyə deyilir? (6 bal)**
a) Güllənin uçuş məsafəsindəki orta sürəti
b) lülə kanalını tərk etdiyi andakı sürəti
c) lülə kanalındakı sürəti
d) Onun uçuşuna ətraf mühitin təsirindən sonrakı sürəti

**6. 7,62 mm-lik СВД tipli snayper tüfənginin maqazininin tutumu? (6 bal)**
a) 40 patron
b) 30 patron
c) 10 patron
d) 45 patron

LAYİHƏ

**7. Ф-1 (F-1) müdafiə əl qumbarasının qəlpələrinin məhv etmə radiusu? (6 bal)**

a) 30 m-ə qədər
b) 25 m-ə qədər
c) 200 m-ə qədər
d) 250 m-ə qədər

**8. Tank əleyhinə partlamayan maneələrə aid deyil? (6 bal)**

a) Teplovizorlar
b) Eskarplar
c) Kontreskarplar
d) Qalaqlar

**9. T-72 tankının çəkisi neçə tondur? (6 bal)**

a) 48 ton
b) 56 ton
c) 18 ton
d) 41 ton

**10. Saxta silah və döyüş texnikası obyektlərinin quraşdırılması necə adlanır? (7 bal)**

a) Gizlətmə
b) Təqlid etmə
c) Nümayiş fəaliyyəti
d) Maskalanma

**11. T-90 tankının torpaq yolda sürəti (km/saat)? (7 bal)**

a) 90 km/saat
b) 50 km/saat
c) 65 km/saat
d) 120 km/saat

**12. Uzanıqlı vəziyyətdə atəş açmaq üçün səngərin ölçüləri hansıdır (sm)? (8 bal)**

a) 170-30-60
b) 160-30-40
c) 170-20-50
d) 150-30-60

LAYİHƏ

**13. БМП-3 (BMP-3 ) tipli döyüş maşınının torpaq yolda sürəti? (8 bal)**

a) 90 km/saat
b) 45-50 km/saat
c) 60-65 km/saat
d) 120 km/saat

**14. Ümumilikdə manqa mövqeyinin qurulmasına nə qədər vaxt sərf olunur? (10 bal)**

a) 6 saata kimi
b) 15 saata kimi
c) 1 sutkaya kimi
d) 3 sutkaya kimi

**15. Avtomatın natamam sökülmə ardıcıllığını seçin. (10 bal)**

1. Sünbəni ayırmaq
2. Maqazini ayırmaq
3. Kompensatoru ayırmaq
4. Qaytarıcı mexanizmi ayırmaq
5. Lülə qutusunun qapağını ayırmaq
6. Penalı qundağın yuvasından çıxarmaq
7. Lülə örtüyü ilə qaz borusunu ayırmaq
8. Çaxmağı çaxmaq çərçivəsindən ayırmaq
9. Çaxmaqla çaxmaq çərçivəsini lülə qutusundan ayırmaq

a) 7, 6, 1, 3, 4, 9, 8, 5, 2
b) 2, 3, 1, 6, 8, 9, 4, 5, 7
c) 2, 6, 1, 3, 5, 4, 9, 8, 7
d) 2, 6, 7, 3, 4, 9, 8, 5, 1

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 4

**Hərbi topoqrafiya (2.3)**

*(16 sual, cəmi 100 bal)*

**1. Hərbi termin kimi döyüşün aparılacağı və döyüş tapşırığının yerinə yetirilməsi planlaşdırılan sahə nə adlanır? (4 bal)**

a) Yerli əşyalar

b) Ərazi obyektləri

c) Relyef

d) Ərazi

**2. Coğrafi meridianın şimal ucundan başlayan və saat əqrəbinin hərəkəti boyu ölçülən bucaq nə adlanır? (4 bal)**

a) Direksion bucağı
b) Azimut bucağı
c) Maqnit azimutu
d) Həqiqi azimut

**3. Dayanma nöqtəsi və istiqamət üzrə hərəkəti daha dəqiq təyin etmək üçün hansı səmtlənmədən istifadə edilir? (4 bal)**

a) Ümumi səmtlənmə
b) Müfəssəl səmtlənmə
c) Xətti səmtlənmə
d) Nöqtəvi səmtlənmə

**4. Ağacların, daşların mamırla örtülü hissələri üfüqün hansı cəhətini göstərir? (4 bal)**

a) Şimal b) Şərq c) Cənub d) Qərb

**5. Yer səthinin öyrənilməsində, koordinatların və bucaqların ölçülməsinə hansı xəritələrdən geniş istifadə edilir? (4 bal)**

a) Geoloji xəritə
b) Coğrafi xəritə
c) Geofiziki xəritə
d) Topoqrafik xəritə

**6. Silah və döyüş texnikasının tətbiqi imkanlarına görə ərazi bir sıra xüsusiyyətlərə malikdir? (6 bal)**

1. Ərazinin keçilmə imkanı
2. Ərazinin müşahidə şəraiti
3. Ərazinin atəşaçma şəraiti
4. Ərazinin hücum xüsusiyyətləri
5. Ərazinin müdafiə xüsusiyyətləri

a) 1, 2, 3 b) 1, 2, 5 c) 1, 4, 5 d) 1, 3, 4

LAYİHƏ

**7. Hərəkət istiqamətini saxlamaq üçün aralıq oriyentirləri seçin. (6 bal)**

1. Günəş
2. Tək tikililər,
3. Parlaq ulduzlar
4. Relyef formaları
5. Yüksək dağ zirvələri

a) 3, 4, 5
b) 1, 3, 5
c) 2, 4
d) 1, 5.

**8. Şəxsi heyətin və döyüş texnikasının mövqeyini düşməndən gizli saxlamağa imkan verən ərazi xüsusiyyətlərini seçin. (6 bal)**

1. Dərələr,
2. Qobular
3. Maneələr
4. Yarğanlar
5. Daldalanacaqlar

a) 1, 2, 5    b) 2, 3, 4    c) 1 ,2, 4    d) 1, 3,5

**9. Sahəvi işarələr qrupuna aid olanları seçin. (6 bal)**

1. Yollar,    4. Göllər,
2. Meşələr,    5. Kurqanlar
3. Quyular,    6. Əkin sahələri

a) 3, 4, 5    b) 2, 4, 6    c) 1, 2, 4    d) 1,4,5

**10. Hərəkət istiqamətini saxlamaq üçün köməkçi oriyentirləri seçin. (6 bal)**

1. Günəş
2. Tək tikililər
3. Parlaq ulduzlar
4. Relyef formaları
5. Yüksək dağ zirvələri

a) 3, 4, 5    b) 1, 3, 5    c) 2, 4    d) 1, 5

**11. Dayanma yerinin və lazımi hərəkət istiqamətinin təyin edilməsini asanlaşdıran ərazi xüsusiyyəti hansıdır? (7 bal)**

a) Müşahidə şəraiti
b) Atəşaçma şəraiti
c) Səmtlənmə şəraiti
d) Ərazinin keçilmə imkanı

LAYİHƏ

**12. Ərazinin mühəndis təchizatı şəraiti nədən asılı deyil? (7 bal)**

a) Torpağın tipindən
b) Sutkanın vaxtından
c) Qrunt sularının səviyyəsindən
d) Maneələrin xarakterindən

**13. 125 azimutla gedən səyyah yolu geriyə qayıtmaq üçün hansı tərs azi mutla geri qayıtmalıdır? (8 bal)**

a) 45 b) 305 c) 235 d) 55

**14. Ərazinin bu xüsusiyyətləri ilin fəslindən, sutkanın vaxtından və hava şə raitindən asılıdır? (8 bal)**

a) Maskalayıcı xüsusiyyətlər
b) Qoruyucu xüsusiyyətlər
c) Atəşaçma xüsusiyyətləri
d) Səmtlənmə xüsusiyyətləri

**Sxemdə kompasın göstəricisini nəzərə alaraq ölçmələr aparın və azimutla hərəkət istiqamətinə uyğun cədvəli doldurun.**




| Sual № | Hərəkət istiqaməti | Maqnit azimutu | Məsafə cüt addım |
|---|---|---|---|
| *15 (10 bal)* | AB | | |
| *16 (10 bal)* | BC | | |

LAYİHƏ

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 5

**Mülki müdafiə (2.4, 2.5)**

*(20 sual, cəmi 100 bal)*

**1. Fövqəladə halların mənbəyinə aid deyil? (2 bal)**
a) Təhlükəli təbii hadisələr
b) Şimal küləklərinin əsməsi
c) Müasir KQS-in tətbiq edilməsi
d) Geniş yayılmış infeksion xəstəliklər

**2. Boğucu təsirli zəhərli maddələr insan orqanizminə hansı yolla təsir edir? (2 bal)**
a) Nəfəs yolu ilə
b) Dəri vasitəsilə
c) Gözdən nüfuz edərək
d) Həzm orqanları vasitəsilə

**3. Münaqişəsiz fövqəladə hadisələrə aid olmayanı qeyd edin. (2 bal)**
a) Təbii xarakterli hadisələr
b) Tüğyan edən cinayətkarlıq
c) Texnogen xarakterli hadisələr
d) Ekoloji xarakterli hadisələr

**4. Texnogen xarakterli fövqəladə hadisələrə aid deyil. (2 bal)**
a) Partlayışlar
b) Binaların qəflətən uçması
c) Təhlükəli geoloji hadisələr
d) Radioaktiv maddələrin ətrafa yayılması

**5. Tikinti materialları və konstruksiyaları qrupuna aid olmayanı qeyd edin. (3 bal)**
a) Yanan b) Dağılan c) Yanmayan d) Çətin yanan

**6. Toksiki kimyəvi maddələr nə halında olmur? (3 bal)**
a) Damcı-maye
b) Aerozol
c) Kristal-bərk
d) Qaz

LAYİHƏ

**7. Təbii mənşəli fəlakətləri təhlükəli edən nədir? (3 bal)**

a) Qəfil baş verməsi

b) Tez-tez baş verməsi

c) Ancaq gecələr baş verməsi

d) Ancaq gündüzlər baş verməsi

**8. Qar uçqunlarının əmələgəlmə səbəblərinə aid olmayanı seçin. (3 bal)**

a) Uzunmüddətli qar yağması

b) Qarın intensiv əriməsi

c) Zəlzələ, partlayışlar, hava mühitinin titrəməsi

d) Dağların cənub yamaclarının qayalıq olması

**9. Xirosimaya atılan bomba necə adlanırdı? (5 bal)**

a) “Kök kişi” (Fat man)

b) “Uzun adam” (Long man)

c) “Kor oğlan” (Blind boy)

d) “Balaca oğlan” (Little boy)

**10. Bioloji silahın əsasını nə təşkil edir? (5 bal)**

a) Radioaktiv zəhərlənmə

b) Xəstəlik törədən mikroblar

c) Toksiki kimyəvi maddələr

d) Nüfuzedici radiasiya

**11. Radioaktiv qəzalar qrupuna aid deyil? (5 bal)**

a) Yerli qəzalar

b) Lokal qəzalar

c) Kütləvi qəzalar

d) Ümumi qəzalar

**12. Zərbə dalğasının 2000 metr məsafəyə təsir vaxtı? (5 bal)**

a) 2 saniyə

b) 5 saniyə

c) 8 saniyə

d) 10 saniyə

**13. Zəlzələ baş verəndən sonrakı ilk neçə saatdan tez binaya girmək olmaz? (5 bal)**

a) 0,5-1 saatdan

b) 2-3 saatdan

c) 3-5 saatdan

d) 4-6 saatdan

LAYİHƏ

**14. Pambıq-tənzif sarğı hazırlamaq üçün hansı ölçüdə tənzif götürülür? (5 bal)**

a) 60 × 110 sm c) 50 × 100 sm

b) 40 × 120 sm d) 30 × 140 sm

**15. "Fəlakət – faciəli şəkildə çoxsaylı ________________________ itkisi ilə nəticələnən qəza hadisəsidir" fikrini tamamlayın. (7 bal)**

**16. "Daşdan tikilmiş binaların birinci mərtəbələri radiasiya təsirini 10 dəfə, zirzəminin orta hissəsi isə ____________________ dəfə azaldır" fikrini tamamlayın. (7 bal)**

**17. Geofiziki təhlükəli hadisələri seçin? (8 bal)**

1. Zəlzələ 2. Subasma 3. Sürüşmə 4. Vulkan

a) 1, 2 b) 2, 4 c) 1, 4 d) 3, 4

**18. Nüvə silahının əsas məhvetmə faktorları ardıcıllığını seçin. (8 bal)**

1. Zərbə dalğası
2. İşıq şüalanması
3. Nüfuzedici radiasiya
4. Elektromaqnit impuls
5. Yer səthinin radioaktiv zəhərlənməsi

a) 1, 2, 3, 4, 5 b) 2, 1, 3, 4, 5

c) 1, 3, 2, 5, 4 d) 1, 2, 3, 5, 4

**19. Kömür süzgəcli əleyhqazlar ordu silahlanmasına nə vaxt qəbul edilib? (10 bal)**

a) 1815-ci il b) 1916-ci il c) 1943-ci il d) 1971-ci il

**21. Tənəffüs orqanlarının qorunması üçün istifadə olunanların uyğunluğu nu seçin. (10 bal)**

1. Buxarlardan 3. Radioaktiv tozdan

2. Aerozollardan 4. Zəhərləyici maddələrdən

a) Əleyhqazlar

b) Respiratorlar

c) Pambıq-tənzif sarğısı

d) Toz əleyhinə parça maska

1-a; 2-c; 3-b; 4-d

1-c; 2-d; 3-b; 4-a

1-b; 2-c; 3-a; 4-d

1-d; 2-a; 3-b; 4-c

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ – 6

**Hərbi tibbi hazırlıq (3.1, 3.2)**

*(15 sual, cəmi 100 bal)*

**1. Düşüncə tərzi, insani keyfiyyətlərin inkişafı ilə xarakterizə olunan insan sağlamlığı hansı sağlamlıq növüdür. (5 bal)**
a) Fiziki sağlamlıq
b) Mənəvi sağlamlıq
c) İdeoloji sağlamlıq
d) Psixoloji sağlamlıq

**2. Əzələnin və dərinin tamlığı pozulmuşsa, buna hansı sınıqlar deyilir. (5 bal)**
a) Güllə sınığı
b) Qəlpə sınığı
c) Açıq sınıq
d) Qapalı sınıq

**3. Zəif dərəcədə olan qanaxmalar növünə aid olanı qeyd edin. (5 bal)**
a) Daxili qanaxmalar
b) Venoz qanaxmalar
c) Arterial qanaxmalar
d) Kapilyar qanaxmalar

**4. Aşağıdakılardan hansı ilk tibbi yardımın məqsədinə aid deyil? (5 bal)**
a) Əzabları yüngülləşdirmək
b) Zərərçəkəni əməliyyat etmək
c) Yaraların ağırlaşmasının qarşısını almaq
d) Fövqəladə vəziyyətdə insan həyatını xilas etmək

**5. İşlənmiş qanı orqanlardan ürəyə daşıyan damarlar zədələnərsə qanaxmanın hansı növünə aiddir? (6 bal)**
a) Venoz qanaxma
b) Daxili qanaxma
c) Arterial qanaxma
d) Kapilyar qanaxma

**6. Kapilyar qanaxmanı həmin sahəyə hansı sarğı qoymaqla dayandırmaq olur? (6 bal)**
a) Sıxac    b) Adi sarğı    c) Şinalı sarğı    d) Təzyiqedici sarğı

LAYİHƏ

**7. Elektrik vurmada zərərçəkəni cərəyan mənbəyi ilə təmasdan azad etdikdən sonra dərhal nə etmək olmaz? (6 bal)**

a) Üstünü isti örtmək
b) İçməyə isti çay vermək
c) Başının altına balış qoyaraq yatağa uzatmaq
d) Başının altına balış qoyulmadan yatağa uzatmaq

**8. Suda batan şəxsi sahilə çıxartmaq üçün nə etmək olmaz? (6 bal)**

a) Saçlarından tutaraq üzünü yuxarı çevirmək
b) Ön tərəfdən yaxınlaşaraq üzünü yuxarı çevirmək
c) Paltarının yaxalığından tutaraq üzünü yuxarı çevirmək
d) Qoltuqaltı nahiyəsindən tutaraq üzünü yuxarı çevirmək

**9. Donmada ilk tibbi yardımın əsas prinsipi nədən ibarətdir? (6 bal)**

a) Zədələnmiş nahiyəni masaj etməkdən və təkrar soyumadan qorumaqdan
b) Zədələnmiş nahiyəni isitmək və təkrar soyumadan qorumaqdan
c) Zədələnmiş nahiyəni qızdırılmış kərpiclə isitməkdən
d) Zədələnmiş nahiyəni qaynar suda birbaşa isitməkdən

**10. Soyuqdan donmada zərərçəkənə göstərilən ilk tibbi yardıma aid olanları seçin. (7 bal)**

1. Zədələnmiş nahiyəni isitmək
2. Bədəni sıxan paltarları çıxarmaq
3. Zədələnmiş nahiyəni qarla sürtmək
4. Zədələnmiş nahiyəni əllə ovuşdurmaq
5. Zədələnmiş nahiyəni təkrar soyumadan qorumaq

a) 1, 2, 3 c) 1, 2, 5
b) 2, 3, 4 d) 2, 4, 5

**11. İlan sancması zamanı zərərçəkənə göstərilən ilk tibbi yardıma aid olanları seçin. (7 bal)**

1. Yaranı dezinfeksiya etmək lazımdır
2. Zərərçəkəni hərəkət etdirmək lazımdır
3. Zərərçəkəni xərəkdə aparmaq lazımdır
4. Zərərçəkənə alkoqollu içkilər vermək lazımdır
5. İlk 10 dəqiqə ərzində yaradan zəhəri sıxıb çıxarmaq lazımdır

a) 1, 2, 3
b) 2, 3, 4
c) 1, 3, 5
d) 2, 4, 5

LAYİHƏ

**12. Elektrik vurmada zərərçəkəni cərəyan mənbəyi ilə təmasdan azad etmək üçün hansı əşyalardan istifadə etmək olmaz? (8 bal)**

1. Məftildən
2. Quru taxtadan
3. Rezin əşyadan
4. Nəm dəsmaldan
5. Metal əşyalardan
6. Plastik bir əşyadan

a) 1, 2, 3    b) 2, 3, 6    c) 1, 4, 5    d) 2, 4, 5

**13. Yüngül və ya sahəsi çox da geniş olmayan yanıqlar zamanı zərərçəkənə ilk tibbi yardım üçün nə etmək lazımdır? (8 bal)**

a) Yumurta sürtmək lazımdır
b) Buzdan istifadə etmək lazımdır
c) Yağlı məlhəmlər sürtmək lazımdır
d) Soyuq axar su altında saxlamaq lazımdır

**14. “Sağlamlıq insanın fiziki, psixoloji və ______________________________ rifahının öz qaydasında olması ilə müəyyən olunur” fikrini tamamlayın. (10 bal)**

**15. Güclü arterial və qarışıq qanaxma zamanı qanaxmanı saxlayan sıxacı yay aylarında hansı müddətdən artıq saxlamaq olmaz. (10 bal)**

a) 1 saat    b) 2 saat    c) 30 dəqiqə    d) 45 dəqiqə

LAYİHƏ

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 12 noyabr 1995-ci il.
2. "Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 11 may 2010-cu il.
3. "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 10 iyun 1992-ci il.
4. "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 17 noyabr 2007-ci il – 19 iyul 2004-cü il.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı, 2005.
6. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi. 23 sentyabr 1994-cü il.
7. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi. 23 sentyabr 1994-cü il.
8. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 14 may 1999-cu il.
9. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi. 23 sentyabr 1994-cü il.
10. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsi. 24 dekabr 2014-cü il.
11. Azərbaycan Respublikasının Hərbi doktrinası. 8 iyun 2010-cu il.
12. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 9 oktyabr 1991-ci il.
13. Azərbaycan Respublikasının milli kurikulumu. Bakı, 2006.
14. Azərbaycan Respublikasının təhsil qanunu. Bakı, 2006.
15. Abbasov Ə. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar". Azərbaycan məktəbi. 2007, №4.
16. A.Məmmədov. Atəş hazırlığı. I hissə, AAHM nəşriyyatı, 2005.
17. A.M.Məmmədov, C.S.Əkbərov, Ə.M.Talıbov, E.Q.Həşimov. İlkin tibbi yardım (dərs vəsaiti). Bakı, 2014.
18. Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi. Bakı, 29 may 1998-ci il.


LAYİHƏ

19. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 9 aprel 2002-ci il.
20. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbay can Respublikasının Qanunu. Bakı, 3 oktyabr 1997-ci il.
21. “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 20 may 1997-ci il.
22. “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 25 dekabr 1991-ci il.
23. Hərbi mühəndis hazırlığı. Bakı, AAHM nəşriyyatı, 2016.
24. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 23 dekabr 2011-ci il.
25. “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 6 yanvar 1994-cü il.
26. Quru Qoşunlarının döyüş fəaliyyəti. III hissə (taqım, manqa, tank). Bakı, 2016.
27. “Müdafiə haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 26 noyabr 1993-cü il.
28. R.F.Əkbərov, R.F.Əkbərova. İlk tibbi yardım. Bakı, “Mütərcim”, 2010.
29. Z.Veysova “Fəal interaktiv təlim”. Bakı, 2007.
30. Военная топография. Москва, 1990.

LAYİHƏ